RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 110 (8426) CÜMƏ AXŞAMI, 11 iyun 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Azərbaycan koronavirusla mübarizədə nümunə göstərir

**Bir neçə aydır bütün ölkələrdə ciddi təhdid mənbəyinə çevrilən koronavirus pandemiyası hər gün on minlərlə insanın həyatını təhlükə altına atır. Təsadüfi deyil ki, son statistikaya görə, dünyada bu virusa yoluxanların sayı 7,3 milyon, ölənlərin sayı isə 413 min nəfəri ötüb. Ən inkişaf etmiş ölkələr belə bu təhlükənin qarşısında aciz durumda qalıb.**

### Bütün tədbirlərin mərkəzində məhz vətəndaşların sağlamlığı dayanır

Bu müddətdə xəstəliklə mübarizə tədbirləri təsdiq etdi ki, yoluxuculuq forması yüksək olan virusdan qorunmağın ən yaxşı yollarından biri sosial izolyasiya, insanlar arasında ünsiyyətin məhdudlaşdırılması, karantin rejiminin tətbiqidir. Bu xüsusda müvafiq addımlar atan, qabaqlayıcı tədbirlər görən ölkələrdə virusun tüğyan etməsinin qarşısı alınıb və itkilər digər dövlətlərlə müqayisədə xeyli az olub.

## İlham ƏLİYEV: “Bizim əsas vəzifəmiz insanları bu xəstəlikdən qorumaqdır, onların həyatını xilas etməkdir”

Bunun ən real nümunəsi qismində çıxış edən ölkələrdən biri də Azərbaycandır. Təsadüfi deyil ki, bu gün koronavirusa qarşı ən effektiv mübarizə aparan ölkələrdən söz açdıqda Azərbaycanın adı birincilər cərgəsində gəlir. Bu da təsadüfi deyil. Çünki fevralın sonlarında respublikamızda virusa ilk yoluxma halı qeydə alınandan sonra dərhal, operativ şəkildə qabaqlayıcı tədbirlərin həyata keçirilməsinə başlanıldı. Virusun qonşu ölkələrdən gəlməsi nəzərə alınaraq yük avtomobillərinin hərəkəti istisna olmaqla, bütün sərhədlərimiz bağlanıldı və yalnız Azərbaycan vətəndaşlarının vətənə qayıtmalarına imkan yaradıldı. O cümlədən bütün istiqamətlərə təyyarə uçuşları dayandırıldı.

Qlobal pandemiya ilə mübarizə məsələsi ilk gündən Prezident İlham Əliyevin diqqət mərkəzində oldu. Mart, aprel, may və iyun aylarında dövlət başçısının fəaliyyəti, keçirdiyi görüşlər, verdiyi qərarlar bunu təsdiq edir. Koronavirusla mübarizə bu gün dövlət siyasətinin prioritetlərindən biridir. Bu istiqamətdə ən vacib məsələ isə ilk növbədə vətəndaşların sağlamlığıdır. İyunun 9-da modul tipli xəstəxanaların açılışı zamanı Prezident İlham Əliyev bir daha bildirdi ki, görülmüş bütün tədbirlərin mərkəzində məhz Azərbaycan vətəndaşlarının sağlamlığı dayanmışdır.

### Modul xəstəxanalardan dördü hazırdır

Virusun yayılmağa başladığı dövrdən dövlət başçısının tapşırığına əsasən zəruri qabaqlayıcı, profilaktik və təxirəsalınmaz tədbirlər görüldü. Bu istiqamətdə görülən kompleks işlər çərçivəsində Prezident İlham Əliyevin təşəbbüsü ilə modul tipli xəstəxanaların tikintisinin xüsusi əhəmiyyəti var. Bu, tətbiq olunan xüsusi karantin rejimi dövründə ölkənin səhiyyə sisteminin indiyədək görünməmiş bu qlobal çağırışa və arta biləcək xəstə sayına tab gətirməsi üçün mövcud xəstəxanaların infeksion çarpayı fondunun artırılması baxımından müstəsna rol oynayır. Belə ki, modul tipli xəstəxanaların quraşdırılması ilə ölkənin səhiyyə sisteminin əlavə 2000 çarpayılıq ehtiyat yeri yaranır. Eyni zamanda bu xəstəxanaların yaradılmasında əsas məqsədlərdən biri də koronavirus xəstələrinin lazımi tibbi xidmətlərlə əhatə olunması üçün vahid idarəetməni və tibbi əlaqələndirməni təmin etməkdir.

Modul tipli xəstəxanaların yaradılması Prezident İlham Əliyevin “Koronavirus pandemiyası ilə mübarizənin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında” 7 aprel 2020-ci il tarixli sərəncamı ilə həyata keçirilir.

*Ardı 6-cı səh.*

# Qobustan rayonunun Bakı-Şamaxı-Yevlax (88 km)-Ərəbqədim-Göydərə avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. İki min nəfər əhalinin yaşadığı 2 yaşayış məntəqəsini birləşdirən Bakı-Şamaxı-Yevlax (88 km)-Ərəbqədim-Göydərə avtomobil yolunun tikintisinin başa çatdırılması məqsədilə Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşunun (investisiya xərclərinin) bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 4,1 milyon (dörd milyon bir yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyun 2020-ci il*

# “Azərbaycan xalqı xoşbəxtdir ki, Sizin kimi müdrik Prezidenti var”

**Bütün dünyanı bürümüş koronavirus pandemiyasının ölkəmizdə geniş yayılmasının qarşısının alınması istiqamətində Prezident İlham Əliyevin atdığı qətiyyətli addımlara, əhalinin sağlamlığının qorunması, rifahının yaxşılaşdırılması üçün gördüyü işlərə görə Azərbaycan vətəndaşlarından dövlət başçısına minnətdarlıq məktubları gəlməkdə davam edir. Vətəndaşlarımız Prezident İlham Əliyevin göstərdiyi diqqət və qayğıdan razılıqlarını ifadə edirlər. AZƏRTAC Prezidentin saytına istinadla dövlət başçısına ünvanlanan məktubların bir qismini təqdim edir.**

Cəlilabad rayonunun Kazımabad kəndindən **Allahşükür Cabbarov, Rəsul Əliyev, Samir Qəribov, Kamran Məmmədov, Qoşqar Babayev, Mürsəl Muradov** və **Arif Əliyev** yazırlar: “Möhtərəm cənab Prezident, Ümummilli Lider Heydər Əliyev torpaqları kəndlilərə qaytardıqdan sonra güzəranımız yaxşılaşmağa başladı. Min bir əziyyətlə olsa da, əkin-biçinlə məşğul olaraq ailəmizi dolandırır, gələcəyə daha böyük ümidlə baxırdıq. İndi ölkəmizin imkanları genişləndiyindən və dövlət dəstəyi gücləndirildiyindən torpağa meyillilik də artıb. Əkdiyimiz sahələrə görə Sizin göstərişiniz əsasında güzəştli gübrələrin və subsidiyanın ödənilməsi bizi sevindirir. Bu il pandemiyanın və karantin rejiminin olması biz kəndliləri narahat edirdi. Bizi narahat edən əsas məsələ əkdiyimiz kartofu xarici bazara çıxarmaq idi. Sizin qayğınız nəticəsində heç bir problemlə üzləşmədik. Çox sağ olun ki, Rusiya-Azərbaycan sərhədlərindən keçən çoxsaylı yük maşınlarının buraxılmasını təmin etdiniz. Bu maşınlar vasitəsilə kartofumuzu xarici bazarlara çıxararaq itkisiz və heç bir əngəl olmadan məhsulumuzu satdıq, gəlir əldə etdik. Bütün bunlara görə Sizə minnətdarıq, cənab Prezident. Allah Sizi qorusun!”

Bakının Xəzər rayonundan **Xalidə Məmmədova:** “Hörmətli cənab Prezident, mən Sizin fəaliyyətinizi çox böyük maraqla və qürurla izləyirəm. Bir vətəndaşın normal yaşaması və cəmiyyətdə özünü ifadə etməsi üçün nə lazımdırsa, onu da edirsiniz. Xüsusilə qeyd etmək yerinə düşər ki, ölkəmizdə sabitliyi qoruyub saxlayırsınız. Bunun əhəmiyyəti çox böyükdür. Sizin düzgün siyasətiniz nəticəsində biz pandemiya dövründə bir çox ölkələr kimi tənəzzülə uğramadıq. Siz işsizlərə, pensiyaçılara, əlillərə, veteranlara və digərlərinə kömək göstərdiniz, maddi və ərzaq yardımları etdiniz. Sizin göstərişlərinizə uyğun olaraq banklar vətəndaşlara kreditlərin ödənilməsində möhlət verdi. Bütün bunlara görə Sizə böyük təşəkkür düşür, cənab Prezident. Allah Sizə möhkəm cansağlığı, tükənməz güc-qüvvət qismət eləsin!”

Tərtər rayonundan **Rafiq Səfərov, Məhərrəm Rəhimov, Kəmalə Quliyeva, Elşən Səfərov** və **Nabat İbrahimova** yazırlar: “Çox hörmətli cənab Prezident, Tərtər rayonunun A.Məmmədov adına Xoruzlu kənd tam orta məktəbinin kollektivi adından Sizə böyük təşəkkürümüzü bildiririk. Uzun illər məktəbimiz yararsız vəziyyətdə idi. Amma buna baxmayaraq, müəllim və şagird kollektivi çətin də olsa, təhsilini davam etdirirdi. Sizin Tərtərə gəlişiniz və məktəbimizin yenidən tikilməsi haqqında verdiyiniz sərəncam bizi Sizə daha da yaxınlaşdırdı. Biz gördük ki, Siz hər zaman xalqımızın yanındasınız. İstər cəbhə bölgəsində vəziyyətin gərginləşdiyi dövrlərdə, istərsə də hazırkı koronavirus bəlası ilə mübarizə zamanı Siz tərtərliləri heç vaxt diqqətdən kənarda qoymamısınız.

*Ardı 3-cü səh.*

# Azərbaycan Respublikası Yəmən xalqına yardım edib

Yəməndə baş verən humanitar böhranla əlaqədar BMT Baş katibinin humanitar məsələlər üzrə müavini Mark Loukokun Kral Salmanın Humanitar Yardım və Dəstək Mərkəzinin Baş direktoru Abdulla Əl Rəbiahla birgə ünvanladığı məktuba cavab olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi ilə Yəmənə humanitar yardım məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən 25 min ABŞ dolları məbləğində maliyyə vəsaiti ayrılıb. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyindən məlumat verilib.

Sözügedən yardımın BMT-nin Humanitar Məsələlərin Əlaqələndirilməsi Ofisi (OCHA) vasitəsilə Yəməndə humanitar böhrandan əziyyət çəkən əhaliyə təcili humanitar yardım şəklində çatdırılması nəzərdə tutulub.

Məlumat üçün bildirmək istərdik ki, BMT-nin hesablamalarına görə, dünyanın ən acınacaqlı humanitar fəlakətin yaşandığı Yəməndə 24 milyon insanın (əhalinin 80 faizi) humanitar yardıma ehtiyacı var, 250 min şəxs isə kəskin aclıqdan əziyyət çəkir. 3,3 milyon məcburi köçkünü olan ölkədə əhali arasında müxtəlif növ təhlükəli xəstəliklər yayılmaqdadır. Cari il ərzində Yəməndə humanitar ehtiyaclarının qarşılanması, o cümlədən COVID-19 pandemiyası ilə mübarizənin aparılması üçün 2 milyard ABŞ dolları həcmində vəsaitə ehtiyac duyulduğunu elan edən BMT müvafiq yardımın göstərilməsi üçün üzv dövlətlərə və beynəlxalq təşkilatlara çağırışlar etmişdir.



# Heç bir sosial infrastruktur layihəsi ixtisar edilməyəcək

## Son aylar Azərbaycanda bu qəbildən olan onlarca obyekt istifadəyə verilib

**Koronavirus pandemiyasının yaratdığı böyük çətinliklərə baxmayaraq, ölkəmizdə bu il üçün nəzərdə tutulan sosial infastruktur layihələrinin həyata keçirilməsi davam edir.**

İlin əvvəlindən bəri, o cümlədən pandemiyanın hökm sürdüyü son aylarda Bakıda, digər şəhər və rayonlarımızda onlarca sosial infrastruktur obyekti istifadəyə verilib. Onların bir çoxunun açılışında Prezident İlham Əliyev şəxsən iştirak edib.

Cari il yanvarın 13-də 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə dövlət başçısı demişdir: “İnfrastruktur layihələri keçən ilin əvvəlində qəbul edilmiş regionların sosial-iqtisadi inkişafı IV Dövlət Proqramı çərçivəsində həyata keçirilir. Bu, beşillik proqramdır. Bundan əvvəlki üç proqram müvəffəqiyyətlə icra edildi. Əminəm ki, dördüncü proqramın icrasında da heç bir problem olmayacaq. Beləliklə, hesab edirəm ki, proqram başa çatanda artıq bizim bütün infrastruktur layihələrimiz, o cümlədən sosial infrastrukturla bağlı layihələr öz həllini tapacaqdır”.

Zaman göstərir ki, dünyanı çənginə alan COVID-19 pandemiyası belə Azərbaycan Prezidentinin yeritdiyi sosial siyasətə mane ola bilmir. Dövlət başçısı Azərbaycan xalqına Novruz bayramı münasibətilə təbrikində də, ilin birinci rübünün sosial-iqtisadi yekunları ilə bağlı videokonfrans şəklində keçirdiyi müşavirədə və digər çıxışlarında da bəyan edib ki, nəzərdə tutulan bütün sosial infrastruktur layihələri tam icra ediləcək.

*Ardı 4-cü səh.*

# Maskadan istifadə həyati əhəmiyyət daşıyır

## Dövlət başçısı bir daha bütün qapalı yerlərdə tibbi maskadan istifadənin zəruriliyi ilə bağlı çağırış etdi

**Yarım ildir dünya gündəmində olan koronavirus infeksiyası həyatımıza yeni şərtlər gətirdi. İnsan oğlunun bir çox alışqanlıqlarını silərək, yerinə fərqli qaydalar diktə etdi.**

Cəmi bir neçə ay əvvələ qədər tibb işçilərindən başqa, çox az adamın ehtiyacı olan maska, indi hava və su kimi həyatımızın ən vacib elementinə çevrilib. Ölüm-qalım məsələsində qoruyucumuza, dünyanı istila edən virusa qarşı sipərimizə dönüb.

Bəli, bu, bir reallıqdır ki, bəzən böyük bəlaların qarşısını kiçik həmlələrlə də almaq mümkündür. Elə koronavirus pandemiyasına qarşı mübarizənin də üsulları çox asan və sadədir: sosial məsafə, maska taxmaq və gigiyena qaydalarına riayət etmək...

### Maska taxılması ilə xəstəliyin ötürücülüyünün qarşısı alınır

Milyonlarla insanın mübarizə apardığı koronavirusdan qorunmaqda, onun yayılmasının qarşısını almaqda təsirli vasitələrdən biri olan maskadan istifadə çox vacibdir. Mütəxəssislər qapalı yerlərdə, hətta açıq sahələrdə də maskadan istifadənin təhlükədən qorunmaqda müstəsna rol oynadığını dönə-dönə vurğulayırlar.

*Ardı 6-cı səh.*

## "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Azərbaycan Respublikasının Türkmənistandakı Səfirliyinin və Türkmənistanın Azərbaycan Respublikasındakı Səfirliyinin yerləşməsi üçün qarşılıqlı olaraq torpaq sahələrinin ayrılması haqqında" Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Azərbaycan Respublikasının Türkmənistandakı Səfirliyinin və Türkmənistanın Azərbaycan Respublikasındakı Səfirliyinin yerləşməsi üçün qarşılıqlı olaraq torpaq sahələrinin ayrılması haqqında" 2020-ci il martın 11-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2020-ci il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında 2008-ci il 19 may tarixli Sazişə dəyişikliklər və əlavələr edilməsi barədə" Protokolun təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında 2008-ci il 19 may tarixli Sazişə dəyişikliklər və əlavələr edilməsi barədə" 2020-ci il martın 11-də Bakı şəhərində imzalanmış Protokol təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2020-ci il*

## Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı və 10-cu bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (II kitab), maddə 585; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddə 233, № 8, maddə 463; 2003, № 6, maddə 276; 2004, № 5, maddə 321, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761, № 11, maddə 890; 2005, № 1, maddə 4, № 4, maddə 278, № 6, maddə 462, № 8, maddə 686, № 10, maddə 874, № 12, maddə 1079; 2006, № 1, maddə 3, № 2, maddə 64, № 5, maddə 390, № 10, maddə 847, № 11, maddə 929, № 12, maddə 1032; 2007, № 2, maddələr 65, 68, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddə 1221; 2008, № 6, maddə 462, № 7, maddələr 606, 607, № 12, maddələr 1045, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 966; 2010, № 3, maddələr 171, 173, 178, № 7, maddə 593, № 12, maddə 1058; 2011, № 6, maddə 480, № 7, maddələr 589, 599; 2012, № 7, maddə 674, № 11, maddə 1062, № 12, maddə 1215; 2013, № 2, maddə 77, № 6, maddələr 616, 626, № 7, maddə 786, № 11, maddə 1265, № 12, maddə 1493; 2014, № 2, maddələr 90, 102, № 4, maddələr 328, 344, № 6, maddə 600, № 11, maddələr 1354, 1362; 2015, № 4, maddə 342, № 5, maddə 511, № 11, maddələr 1270, 1288; 2016, № 2 (II kitab), maddə 218, № 10, maddə 1607, № 12, maddələr 2020, 2031, 2034, 2039; 2017, № 5, maddə 751, № 12 (I kitab), maddələr 2232, 2267; 2018, № 5, maddələr 877, 882, № 7 (I kitab), maddə 1421; 2018, № 11, maddə 2235, № 12 (I kitab), maddə 2515; 2019, № 7, maddələr 1198, 1200, № 12, maddə 1898) 487-5.2-ci maddəsinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Hüquqi şəxsin yenidən təşkil edilməsinin və ya ləğv olunmasının qadağan edilməsi barədə məhkəmənin qərarı dərhal müvafiq icra hakimiyyəti orqanına göndərilir.".

**Maddə 2.** "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 8; 2005, № 1, maddə 1, № 8, maddə 700; 2006, № 2, maddə 70; 2008, № 2, maddə 49; 2010, № 4, maddə 265; 2012, № 1, maddə 2, № 7, maddə 651; 2013, № 12, maddə 1479; 2014, № 2, maddə 78, № 7, maddə 769, № 11, maddə 1356, № 12, maddə 1526; 2015, № 11, maddə 1259; 2016, № 4, maddə 644, № 10, maddə 1606; 2017, № 5, maddələr 709, 724, № 10, maddə 1775; 2018, № 12 (I kitab), maddələr 2471, 2531; 2019, № 1, maddələr 16, 21, № 2, maddə 176, № 6, maddə 999, № 7, maddə 1203) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 12.8.1-ci maddəyə "yenidən təşkili," sözlərindən sonra "məhkəmənin qərarı ilə yenidən təşkil edilməsinin, yaxud ləğv olunmasının qadağan edilməsi," sözləri əlavə edilsin;

2.2. 14.1.9-1-ci maddəyə "hüquqi şəxsin yenidən" sözlərindən əvvəl "məhkəmənin qərarı ilə" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 may 2020-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 fevral tarixli 1831 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin fəaliyyəti ilə bağlı bəzi məsələlərin tənzimlənməsi qaydası"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 fevral tarixli 1831 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 195) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin fəaliyyəti ilə bağlı bəzi məsələlərin tənzimlənməsi qaydası"nda dəyişiklik təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələləri həll etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyun 2020-ci il*

# Koronavirusla mübarizədə dövlətin gördüyü işlər və vətəndaş məsuliyyəti mövzusunda videokonfrans keçirilib

**İyunun 10-da Yeni Azərbaycan Partiyasının İcra Katibliyində "Koronavirus pandemiyasına qarşı mübarizədə dövlətin həyata keçirdiyi işlər və vətəndaş məsuliyyəti" mövzusunda videokonfrans formatında tədbir keçirilib.**





YAP-dan AZƏRTAC-a verilən məlumata görə, tədbirdə çıxış edən Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov bildirib ki, dünyada tüğyan edən koronavirus (COVID-19) pandemiyası həm dövlətlərin, həm cəmiyyətlərin, həm də insanların həyatına ciddi şəkildə öz təsirini göstərib. Onun sözlərinə görə, bu gün bütün dövlətlərin gündəliyində ən aktual məsələ pandemiyaya qarşı mübarizə ilə bilavasitə əlaqədardır. Təbii ki, Azərbaycan hökuməti də bu mənada istisna deyil. Azərbaycanda da COVID-19 pandemiyası yayıldığından hökumətin başlıca vəzifələrindən biri pandemiya ilə mübarizənin aparılmasından ibarətdir.

Baş Nazirin müavini qeyd edib ki, Azərbaycan hökumətinin pandemiya ilə mübarizədə özünü büruzə verən ən vacib cəhətlərdən biri böyük humanizmdir və Prezident İlham Əliyevin siyasətində bunu aydın şəkildə görmək mümkündür: "Hazırkı şəraitdə insanların sağlamlığı və pandemiyanın iqtisadiyyata vurduğu zərbə aradan qaldırılır. Prezidentimizin qeyd etdiyi kimi, bizim həyata keçirdiyimiz siyasətlə əlaqədar olaraq insanların sağlamlığının qorunması ilə pandemiyanın iqtisadiyyata vurduğu ziyanın aradan qaldırılması arasında seçim etmək lazım gələrsə, bizim üçün əsas olan insanların sağlamlığıdır. Məhz bunun nəticəsində Azərbaycanda pandemiyaya qarşı aparılan mübarizə daha müsbət nəticələr verib. Bu gün dünyada pandemiyaya yoluxanların sayı 7 milyondan, onun qurbanlarının sayı isə 400 min nəfərdən çoxdur. Dünyada hər 1 milyon nəfərə pandemiya qurbanlarının sayı təxminən 440 nəfərdir. Azərbaycanda isə bu göstərici dünya göstəricisindən 5 dəfədən azdır. Bu müsbət nəticə Prezidentimizin əhalinin sağlamlığının qorunması istiqamətində həyata keçirdiyi siyasətin ifadəsidir".

Azərbaycan hökumətinin koronavirusla mübarizə çərçivəsində gördüyü işləri təhlil edən Əli Əhmədov söyləyib ki, burada birinci amil yoluxma hallarının qarşısının alınmasında qabaqlayıcı tədbirlərin əhəmiyyətidir. Belə ki, mart ayından etibarən karantin rejimi, məhdudlaşdırıcı tədbirlər nəticəsində yoluxmada artım çox olmayıb. Bununla da ölkədə epidemioloji vəziyyətə nəzarəti həyata keçirmək mümkündür. Digər istiqamət isə, virusa yoluxmuş insanların müalicəsi ilə bağlıdır. Baş Nazirin müavini deyib ki, ölkə Prezidentinin tapşırığı ilə yaradılmış müasir səhiyyə infrastrukturu virusa yoluxmuş insanların müalicəsi üçün səfərbər edilib.

Əli Əhmədovun sözlərinə görə, pandemiya ilə mübarizədə məhdudlaşdırıcı tədbirlərlə əlaqədar insanların sosial müdafiəsinin gücləndirilməsi də vacib amillərdən biridir. Bu istiqamətdə böyük layihələrin həyata keçirildiyini deyən Əli Əhmədovun fikrincə, bu tədbirlər əhalinin sosial müdafiəsinin gücləndirilməsi ilə yanaşı, virusa yoluxmanın qarşısını da alır.

O qeyd edib ki, Yeni Azərbaycan Partiyası da sosial layihələrdə fəal iştirak edib. Belə ki, YAP Koronavirusla Mübarizə ilə Dəstək Fonduna 530 min manatdan çox vəsait köçürüb. Bunun 230 min manatı partiyanın hesabından, 300 manatı isə YAP-ın strukturlarında çalışanların bir aylıq əməkhaqlarından ianə edilib. Eləcə də YAP-ın könüllüləri tərəfindən 7770 ailəyə qoruyucu tibbi vasitələr çatdırılıb. 13 234 ailəyə isə YAP və onun yerli strukturlarının maddi dəstəyi ilə ərzaq yardımı edilib. Bununla yanaşı, ƏƏSMN-lə birgə layihə çərçivəsində 21 234 ailəyə ərzaq yardımı çatdırılıb.

"Bütün dünyanın göstərdiyi təcrübə ondan ibarətdir ki, koronavirusla mübarizə ilə bağlı dövlət siyasəti yalnız o halda müsbət nəticə verir ki, dövlətin həyata keçirdiyi siyasət hər bir vətəndaşın sosial məsuliyyətini dərk etməsi ilə tamamlanmış olsun. Koronavirus tüğyan etdikcə hər bir fərdin həyatında dəyişikliklər baş verir, onlar öz həyatında müəyyən məhdudiyyətlər tətbiq etmək məcburiyyətində qalır. Ancaq bu məhdudiyyətlərin tətbiq edilməsi yalnız bir məqsəd üçündür. Bu da hər bir insanın virusa yoluxmasının qarşısının alınmasına və aparılan mübarizənin istənilən nəticə verməsinə xidmət edir. Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan vətəndaşları yüksək sosial məsuliyyət nümayiş etdirir. Etiraf etmək lazımdır ki, koronavirusla mübarizə çərçivəsində vətəndaşlardan tələb olunan sosial məsuliyyət o qədər də böyük əziyyət tələb etmir. Bu, tibbi maskalardan istifadə etmək, sosial məsafə saxlamaq, gigiyenik qaydalara əməl etməkdən ibarətdir. Bunların verəcəyi fayda hər bir insan üçün, bütövlükdə cəmiyyət üçün əhəmiyyətlidir. Hər bir vətəndaşın sosial məsuliyyətinin artırılmasına ehtiyac var. Vətəndaşlar ətrafındakı insanlara bu çağırışı etməlidir. Biz də YAP üzvləri olaraq sosial məsuliyyətə əməl etməklə yanaşı, digər insanlara da bunu təşviq etməli, insanları sosial məsuliyyətli olmağa çağırmalıyıq", - deyə YAP sədrinin müavini vurğulayıb.

Daha sonra Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov çıxış edərək ölkəmizdə koronavirusla mübarizə ilə bağlı səhiyyə sisteminin gücləndirilmiş iş rejimində çalışdığını diqqətə çatdırıb. Onun sözlərinə görə, bir sıra dövlət xəstəxanalarının sırf bu prosesə cəlb olunması, modul tipli xəstəxanaların açılması, laboratoriyaların yaradılması, qoruyucu vasitələr istehsal edən müəssisələrin açılması və s. tədbirlər bu baxımdan önəmlidir.

Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Əliyev isə çıxışında pandemiya dövründə əhalinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı həyata keçirilən tədbirlər haqqında məlumat verib.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı Rəşad Mahmudov koronavirusla mübarizədə Azərbaycan həkimlərinin fədakarlığından bəhs edib, vətəndaşları verilən tövsiyələrə əməl etməyə çağırıb.

# Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun onlayn videokonfransı olub

İyunun 10-da Milli Məclisin Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Türkiyə Böyük Millət Məclisinin Azərbaycanla dostluq qrupunun üzvləri ilə onlayn videokonfrans keçiriblər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, videokonfransı Milli Məclisin Səhiyyə komitəsinin sədri, Türkiyə ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupun rəhbəri, akademik Əhliman Əmiraslanov açaraq Azərbaycan Milli Məclisinin Sədri Sahibə Qafarovanın salamlarını Türkiyənin deputatlarına çatdırıb. Bildirib ki, bu görüş hər iki ölkənin parlament rəhbərlərinin təşəbbüsü və arzusu ilə təşkil olunub.

Sonra Əhliman Əmiraslanov hazırda dünyanı bürümüş koronavirus (COVID-19) pandemiyası ilə mübarizə sahəsində ölkəmizdə görülən işlər barədə məlumat verib. Qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə görülmüş qabaqlayıcı tədbirlər xeyli müsbət nəticə verib. Pandemiya elan olunduğu gündən Azərbaycanda Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılıb və genişmiqyaslı tədbirlər görülməyə başlanıb. Bunun nəticəsində bu gün Azərbaycanda əhali sayına düşən həm yoluxma göstəricisi, həm də koronavirusdan ölüm sayı digər ölkələrlə müqayisədə dəfələrlə aşağıdır.

İşçi qrupun rəhbəri məlumat verib ki, hazırda ölkəmizdə koronavirusla mübarizə sahəsində 7 mindən çox çarpayı fondu olan 21 xəstəxana fəaliyyət göstərir və həmin xəstəxanaların imkanları son dərəcə genişdir. Azərbaycanda COVID-19-a yoluxmuş bütün xəstələr dövlət hesabına stasionarda müalicə alırlar. Eyni zamanda pandemiya dövründə digər ölkələrdən gətirilən soydaşlarımız dövlət hesabına, geniş imkanları olan hotellərdə karantinə alınır, həkim nəzarətində saxlanılır.

Dövlətimiz COVID-19 pandemiyası ilə mübarizədə bütün imkanlarını səfərbər edib. Qalır insanların karantin rejiminə riayət etməsi. Əminik ki, görülən tədbirlər müsbət nəticəsini verəcək, yollar açılacaq və biz bir-birimizlə əyani surətdə görüşə biləcəyik.

Videokonfransda Türkiyə Böyük Millət Məclisinin Azərbaycanla dostluq qrupunun rəhbəri Şamil Ayrım iki dövlət, bir millət olan ölkələrimizin və xalqlarımızın qardaşlığından söz açıb. TBMM-in Sədri Mustafa Şentopun Azərbaycan parlamentinin Sədri xanım Sahibə Qafarovaya və Milli Məclisin bütün üzvlərinə salamlar ünvanladığını bildirib. Pandemiya dövründə, böhran vəziyyətində belə bir-birindən dəstəyini əsirgəməyən Türkiyənin və Azərbaycanın dostluğunun sarsılmaz olduğunu vurğulayıb.

Şamil Ayrım Türkiyədə COVID-19-la aparılan mübarizə barədə məlumat verib. Parlamentlərarası əlaqələrimizin daha da inkişaf edəcəyinə əminliyini vurğulayıb. Prezident İlham Əliyevə minnətdarlığını ifadə edərək deyib ki, yubiley günümdə Azərbaycanın "Dostluq" ordeni ilə təltif olunmağım sevincimi ikiqat artırıb.

Sonra videokonfransda fikir mübadiləsi aparılıb.

Milli Məclisin deputatları, Türkiyə ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Eldar İbrahimov, Məlahət İbrahimqızı, Sabir Rüstəmxanlı, Aqiyə Naxçıvanlı, Fazil Mustafa, Rəşad Mahmudov, Nizami Səfərov, Arzu Nağıyev, Ramil Həsən ölkələrimiz arasında dostluq-qardaşlıq münasibətlərindən, strateji tərəfdaşlıq əlaqələrindən bəhs ediblər. Qanunvericilik sahəsində qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyətindən danışıblar.

Videokonfransda Türkiyə Böyük Millət Məclisinin üzvləri Orhan Erdem, Yunus Kılıç, Tülay Kaynarca, Aylin Cesur, Yaşar Karadağ, Yılmaz Tunc, Uğur Bayraktutan çıxış edərək Türkiyə-Azərbaycan əlaqələrinin mənəvi, siyasi əhəmiyyətini yüksək qiymətləndiriblər. Ölkələrimiz arasında hərtərəfli əməkdaşlığın inkişafından bəhs ediblər.

Söhbət zamanı Azərbaycanın və Ulu Öndər Heydər Əliyevin böyük dostu olan Türkiyənin 9-cu Prezidenti Süleyman Dəmirəlin xatirəsi hörmətlə yad olunub. Dağlıq Qarabağ münaqişəsinin həllində Türkiyənin hər zaman Azərbaycanın mövqeyini dəstəklədiyi vurğulanıb.

COVID-19 pandemiyasının tezliklə bitməsi, əlaqələrin adi ahənginə qayıtması və bütün bəşəriyyətin bu bəladan xilas olması arzulanıb.

Videokonfransı yekunlaşdıran Milli Məclisin komitə sədri Əhliman Əmiraslanov bildirib ki, dövlət başçılarımız bizim qarşımızda böyük vəzifələr qoyub. Əlaqələrimiz çoxşaxəli olmalı və daha sıx inkişaf etməlidir.

Videokonfransda TBMM-in deputatları, Azərbaycanla dostluq qrupunun üzvləri İbrahim Aydemir, Yaşar Tüzün, Mehmet Erdoğan da iştirak ediblər.

# *Elmar MƏMMƏDYAROV:* "Azərbaycan İsrail-Fələstin münaqişəsinin "iki dövlət" prinsipi əsasında həllini dəstəkləyir"

İyunun 10-da İslam Əməkdaşlıq Təşkilatının (İƏT) İcraiyyə Komitəsinin Xarici İşlər nazirləri səviyyəsində "İsrailin işğalçı hökumətinin 1967-ci ildə işğal olunmuş Fələstin Dövlətinin ərazilərinin bir hissəsini ilhaq etmək təhlükəsi" ilə bağlı növbədənkənar açıq virtual iclası keçirilib.





Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov virtual iclasda iştirak edib.

İclasda çıxış edən Elmar Məmmədyarov bildirib: "Fələstinin işğal olunmuş ərazisinə təsir edən mühüm hadisələri nəzərdən keçirmək məqsədilə bir araya gəldiyimiz bir vaxtda Azərbaycanın qardaş Fələstin xalqının dövlətçilik, sülh, sabitlik və davamlı inkişafa verdiyi səyləri tam dəstəklədiyini bir daha bildirmək istərdim. Müxtəlif beynəlxalq forumlarda dəfələrlə bəyan edildiyi kimi, Azərbaycan İsrail-Fələstin münaqişəsinin Şərqi Qüdsün Fələstin Dövlətinin paytaxtı olmaqla "iki dövlət" prinsipi əsasında həllini dəstəkləyir.

Bununla əlaqədar olaraq İordan çayının qərb sahilinin bir hissəsinin ilhaqına yönəlmiş mümkün hərəkətlər barədə xəbərlərdən narahatlığımızı bildiririk. Həll prosesinə təsir göstərə biləcək bütün hərəkətləri hər iki tərəf razılaşdırmalıdır. Buna görə də tərəfləri sülh danışıqlarına daha da zərər verə biləcək və beynəlxalq hüququ pozan birtərəfli addımlar atmaqdan çəkinməyə çağırırıq". Elmar Məmmədyarov qeyd edib ki, Qoşulmama Hərəkatının hazırkı sədri qismində Azərbaycan paytaxtı Şərqi Qüds olan suveren və müstəqil Fələstin Dövlətində öz müqəddəratını təyinetmə və azadlıq da daxil olmaqla Fələstin xalqının ayrılmaz hüquqlarının və qanuni milli istəklərinin reallaşdırılmasına yönəlmiş səylərin təşviq olunmasına sadiqdir. Fələstin məsələsinin bütün aspektlərinin, o cümlədən fələstinli qaçqınlar məsələsi də daxil olmaqla beynəlxalq hüquqa, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və BMT-nin müvafiq qətnamələrinə uyğun olaraq ədalətli, davamlı və sülh yolu ilə həllinə yönəlmiş səylərə dəstəyimizi bir daha bildiririk.

"Həqiqətən hazırda dünya pandemiyadan çox əziyyət çəkir. Pandemiyanın nəticələrinə qarşı mübarizə ölkələr və beynəlxalq təşkilatlar arasında intensiv beynəlxalq əməkdaşlıq və yardımlaşma tələb edir. Bununla əlaqədar olaraq Azərbaycan dünyanın 15-ə yaxın ölkəsinə humanitar yardım göstərib" deyən Elmar Məmmədyarov bildirib ki, "ərazi əldə etmək üçün gücün tətbiqi beynəlxalq hüquqla qəbuledilməzdir və bütün dövlətlərin işğal nəticəsində yaranan vəziyyəti hüquqi cəhətdən tanımamaq, bu vəziyyətin davam etdirilməsinə kömək və ya yardım göstərməmək öhdəlikləri var. Otuz ilə yaxındır ki, beynəlxalq səviyyədə tanınmış ərazilərinin işğalı davam edən Azərbaycan Fələstin xalqının hisslərini tam bölüşür".

# “Azərbaycan xalqı xoşbəxtdir ki, Sizin kimi müdrik Prezidenti var”

*Əvvəli 1-ci səh.*



Qədirbilən tərtərlilər bunun dəyərini çox gözəl bilir və hər zaman təqdir edir. Əziz Prezidentimiz, Ulu Tanrıdan Sizə cansağlığı, xoşbəxtlik və işlərinizdə uğurlar arzulayırıq”.

Bakı şəhərinin sakini **Əli Quliyevin** məktubunda deyilir: “Hörmətli cənab Prezident, “Mən istəyirəm ki, hər bir insan yaxşı yaşasın, hər bir insanın maddi imkanları artsın, uşaqlar yaxşı məktəblərdə oxusunlar, müəllimlər yaxşı məktəblərdə dərs desinlər. Həkimlər gözəl xəstəxanalarda işləsinlər və insanlarımız da sağlam olsunlar”. Bu sözlərin sahibi, Möhtərəm Prezident, bütün dünyanı öz ağuşuna alan, ciddi itkilərə səbəb olan COVID-19 pandemiyasından xalqımızı qoruduğunuz, bizdən yardım əlinizi heç çəkmədiyiniz üçün Sizə xalqımız adından dərin minnətdarlığımı bildirirəm. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Azərbaycan xalqı xoşbəxtdir ki, ona Sizin kimi müdrik siyasi xadim rəhbərlik edir. Xarici mənfi proseslərin milli iqtisadiyyatımıza təsirlərini azaltmaq, pandemiyadan zərər çəkmiş sahələrdə çalışan sahibkarlara və muzdlu işçilərə dəstək vermək, iş yerlərini qorumaq, əhalinin sosial müdafiəsini təmin etmək, həmçinin post-pandemiya dövründə yeni iqtisadi inkişaf modelinin tətbiqi üçün real zəmin hazırlamaq məqsədilə operativ addımlar atmağınız çox təqdirəlayiqdir. Rəhbərliyinizlə ölkəmizdə COVID-19 pandemiyasına qarşı genişmiqyaslı tədbirlər görülür, məşğulluğa və sosial rifaha dəstək məqsədilə fəal siyasət aparılır. Bir daha Sizə minnətdarlığımı bildirirəm. Sizinlə fəxr edirəm, qürur duyuram, cənab Prezident! Allah Sizi qorusun!”

Ağcabədi rayonundan **Nabat Yusifova:** “Möhtərəm cənab Prezident, mən Ağcabədi rayonunda yaşayıram, təqaüdçüyəm. Uzun illər tibb sahəsində çalışmışam. Tibb işçisi kimi deyə bilərəm ki, COVID-19 pandemiyasının dünyanı cənginə alması məni çox narahat edirdi. Hər gün televiziya ekranlarından dünyadakı insan tələfatını gördükcə bu narahatlıq daha da artırdı. Lakin Sizin uzaqgörənliyiniz, məqamında tədbirlər görməyiniz xalqımızı kütləvi tələfatdan xilas etdi, insanların qəlbindəki həyəcanı sakitləşdirdi. Hər zaman, hər şəraitdə güvəndiyimiz rəhbərimizə bu məqamda da güvənə bildik. Amma bəzi insanlarımız lap çox arxayınlaşdılar. Dövlətin həyata keçirdiyi təhlükəsizlik tədbirlərinə səthi yanaşan həmin insanlara isə Siz bir daha nümunə oldunuz. İyunun 3-də Ağcabədi rayonuna səfəriniz zamanı tibbi maskadan istifadə etməyiniz, görüş zamanı ara məsafəsi saxlamağınız bir daha Sizin böyüklüyünüzü, hər zaman xalqın yanında olduğunuzu və təhlükəsizlik tədbirlərinə əməl etməyin vacibliyini sübut etdi. Tanrı Sizi, ailənizi və xalqımızı qorusun!”

Şirvan şəhərindən **Nərgiz Mehdiyeva:** “Hörmətli cənab Prezident, bütün dünyanı bürüyən və hamını qorxu altında saxlayan koronavirus pandemiyasına qarşı Sizin rəhbərliyiniz altında aparılan mübarizə əlbəttə ki, bizi sevindirməyə bilməz. Məhz Sizin həyata keçirdiyiniz operativ tədbirlərin hesabınadır ki, ölkəmiz virusla mübarizəni arxada qoymaqdadır və bəzi yumşalma tədbirləri görülməkdədir. Əgər vaxtında Sizin tərəfinizdən lazımi tədbirlər görülməsəydi, biz də digər ölkələr kimi, pandemiyanın acı nəticələri ilə barışmalı olacaqdıq. Biz şirvanlılar qürur hissi keçiririk ki, Sizin kimi rəhbərlərimiz var. Ölkəmizdə elə bir sahə yoxdur ki, Sizin və Mehriban xanımın diqqətindən kənarda qalsın. Bütün bunlar isə gərgin əmək tələb edir. Buna görə, cənab Prezident, ilk növbədə, Sizə və elimizin, obamızın, millətimizin dəyərli xanımı Mehriban xanıma cansağlığı, xalqımızın gələcəyi naminə həyata keçirdiyiniz gərgin, məsuliyyətli və şərəfli işlərinizdə sonsuz uğurlar arzulayırıq. Əmin ola bilərsiniz ki, xalqımız daim Sizi dəstəkləyir və Sizin arxanızdadır. Allah Sizi və ailənizi qorusun!”

Goranboy rayonunun Tapqaraqoyunlu kəndindən tələbə **Cəmilə Abbaszadə:** “Hörmətli cənab Prezident, mən bir Azərbaycan vətəndaşı və gənc nəslin nümayəndəsi, gələcəyin həkimi kimi bu məktubu Sizə böyük qürur hissi ilə yazıram. Cənab Prezidentimiz, ölkə vətəndaşlarının sağlamlığının qorunması naminə gördüyünüz işlərə görə Sizə təşəkkür edirəm. Əminəm ki, Sizin rəhbərliyinizlə bütün çətinliklərin öhdəsindən uğurla gələcəyik. Azərbaycan xalqı Sizin bütün qərarlarınızla həmrəydir. Biz gənclər Sizin kimi Prezidentimiz olduğu üçün fəxr edirik. Ulu Tanrı Sizi qorusun, bütün işlərinizdə Sizə yardımçı olsun!”

Bakının Xətai rayonundan **Aliyə İmamquliyeva:** “Hörmətli cənab Prezident, mən koronavirus pandemiyasının ölkədə geniş yayılmasının qarşısının alınması üçün görülən tədbirlərə, həmçinin tibbi maskanın taxılmaması üçün cərimələrin tətbiqinə görə Sizə minnətdarlıq edirəm. Hər bir vətəndaş bilir ki, tətbiq edilən qadağalar bizim sağlamlığımızın qorunması üçündür. Sizin tapşırıqlarınızı həyata keçirən polis, həkim və müəllimlərimizə də xüsusi təşəkkürlərimizi çatdırır, onlara “Çox sağ olun!” deyirik. Mən və ailəm Sizin Azərbaycanın inkişafı üçün gördüyünüz işləri yüksək qiymətləndirir, Sizə olan sevgimizi bildiririk. Var olun, cənab Prezident!”

Cəlilabad rayonunun Üçtəpə kəndindən **Dövlət Rzayev, Barat Bağırov, Rahim Nağıyev, Cavanşir Səlimov** və **Zakir Rzayev** yazırlar: “Hörmətli cənab Prezident, koronavirus pandemiyası dünya ölkələrinin iqtisadiyyatına, eləcə də kənd təsərrüfatına mənfi təsirini göstərməkdədir. Artıq pandemiyanın cəmiyyətin həyatına təsiri göz önündədir. Məhz Sizin rəhbərliyinizlə Azərbaycanda həyata keçirilən tədbirlər nəticəsində koronavirusun geniş yayılmasının qarşısı alınır, həmçinin pandemiyadan sonrakı dövrdə iqtisadiyyatın, kənd təsərrüfatının inkişafı üçün proqramlar qəbul olunur. Sizin aqrar sahəyə diqqətiniz ölkəmizi mümkün çətinliklərdən qorumaq əzminizin göstəricisidir. Pandemiya dövründə sahibkarların, fermerlərin yetişdirdiyi kənd təsərrüfatı məhsullarının xarici bazarlara çıxarılması üçün göstərdiyiniz dəstək və kömək bizim heç bir halda tək olmadığımızın, Sizin diqqətinizlə əhatə olunduğumuzun sübutudur. Bu dəstək və köməyə görə Sizə minnətdarlığımızı bildiririk. Sizin qarşıya qoduğunuz vəzifələr kənd təsərrüfatının inkişafına xidmət edir. Biz də öz zəhmətimizlə, yetişdirdiyimiz keyfiyyətli məhsullarla bu vəzifələrin icrasına kömək etməyə hazırıq”.

Qəbələ rayonunun Vəndam qəsəbəsindən **Sadəddin Zülfüqarov:** “Çox hörmətli cənab Prezident, Sizin ölkəmizə rəhbərliyiniz dövründə çox müsbət dəyişikliklərin şahidi oluruq. Regionlara olan böyük diqqət və qayğınız sayəsində şəhər və rayonlar, kənd və qəsəbələr öz libasını dəyişmiş, füsunkar görkəm almışdır. Bu işlər sayəsində yerli əhalinin rifahı yaxşılaşmaqla yanaşı, ölkəmizə gələn turistlərin sayı da son illər ərzində artmışdır. Axı belə gözəllikləri kim görmək istəməz?! Azərbaycanda apardığınız abadlıq-quruculuq işlərindən Qəbələ rayonunun Vəndam qəsəbəsinə də pay düşmüşdür. Belə ki, qəsəbəmizdə “Rüsyan” adlanan yaşayış sahəsində 200-dən artıq yaşayış evi vardır. Qış aylarında yolun palçıqlı, yay aylarında isə tozlu olması sakinləri narahat edirdi. Sizin göstərişiniz əsasında yola asfalt örtüyü çəkildi. Əziz Prezidentimiz, bütün sakinlər adından Sizə dərin minnətdarlığımızı bildirirəm. Sizin apardığınız daxili və xarici siyasəti bəyənirik. Biz həmişə Sizinləyik”.

Bakının Xəzər rayonundan **Həzərxan Əbilov:** “Hörmətli cənab Prezident, Sizin düşünülmüş siyasətiniz sayəsində Azərbaycan artıq 17 ildir ki, öz gələcəyini inamla qurur, müstəqilliyinin və beynəlxalq nüfuzunun möhkəmləndirilməsi sahəsində böyük uğurlar qazanır. Bu gün Azərbaycan öz sabitliyini və inkişafını təmin edən ölkədir. Bu sabitlik, bu inkişaf koronavirus pandemiyasının öhdəsindən gəlməyə də kömək etdi. Cənab Prezident, COVID-19 infeksiyasının qlobal miqyasda yayıldığı şəraitdə Sizin verdiyiniz səmərəli qərarlarınız sayəsində ölkəmiz bu virusdan ən az zərər görən dövlətlər sırasındadır. Uğurlu sosial siyasətiniz nəticəsində vətəndaşların pandemiya dövründə sağlamlığının və rifahının qorunması yüksək səviyyədə həyata keçirilir. Aztəminatlı ailələrin müavinətlərinin artırılması, işsizlər üçün əlavə müavinətlərin təyin edilməsi istiqamətində atdığınız addımlar, bu ağır günlərdə təhsil sisteminin yeniləşməsi, xüsusilə məktəb tikintisinin davam etdirilməsi, müəllimlərin sosial qayğılarının diqqət mərkəzində saxlanılması xalqımız tərəfindən rəğbətlə qarşılanır. Möhtərəm cənab Prezident, sadaladıqlarım amillər Sizin Azərbaycan vətəndaşlarına olan qayğı və sevginizin parlaq təzahürüdür. Bütün bunlara görə rayonumuzun müəllimləri adından Sizə dərin minnətdarlığımızı bildirirəm. Tanrı bütün işlərinizdə yardımçınız olsun. Biz Sizinlə güclüyük!”

Gəncə şəhərindən **Yelena Əlişanova, Pərvin Mustafayeva, Pərvanə Pirqulu, Elşən Əmirli** və **Mətləb Əliyev:** “Hörmətli cənab Prezident, yaşadığımız Şahlar Hüseynov 13a ünvanındakı binada 2018-ci ilin noyabr ayında qaz sızması nəticəsində partlayış baş vermişdi. Yararsız vəziyyətə düşən həmin tikilinin yerində Sizin göstərişinizlə yeni bina inşa edildi. Artıq işlər yekunlaşıb və yeni binada sakinlərin rahatlığı üçün bütün imkanlar yaradılıb. Biz əvvəlkindən daha geniş və daha müasir təmirli mənzillərə köçürüldük. Bununla yanaşı, binamızda istilik sistemi quraşdırılıb və digər zəruri işlər görülüb. Cənab Prezident, müasir tələblərə cavab verən binada mənzillə təmin olunduğumuza görə Sizə dərin təşəkkür edirik. Hər zaman Sizin diqqət və qayğınızı hiss edirik. Bir daha minnətdarlığımızı bildirərək Sizə gələcək fəaliyyətinizdə uğurlar arzulayırıq”.

Mingəçevir şəhərindən **Əjdər İbrahimov:** “Möhtərəm cənab Prezident, “Azərbaycan” İES-in yenidən qurulması ilə əlaqədar verdiyiniz tapşırığa əsasən müəssisə əsaslı təmir edilib. Bu, biz energetiklər üçün böyük sevincdir. Bu gün “Azərbaycan” İES-in gecə görüntüləri şəhərimizin gözəlliyinə yeni rəng qatıb. Bu gözəlliklər Azərbaycanımızın inkişafı deməkdir və gələcəyə ümidimizdir. Görülən bütün bu işlər Sizin tapşırığınızla həyata keçirilir. Ona görə də Sizə minnətdarıq. Ulu Tanrı köməyiniz olsun!”

Ağdaş rayonundan **Xəyal İsayev:** “Zati-aliləri cənab Prezident, Sizin gərgin fəaliyyətiniz nəticəsində daxili və xarici siyasətdə əldə edilən uğurlarınız danılmazdır. Bunu son zamanlar ölkədə aparılan uğurlu kadr islahatları, əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində və bütün dünyanı bürüyən COVID-19 pandemiyasına qarşı əvvəlcədən görülən qabaqlayıcı tədbirlər bir daha əyani şəkildə göstərir. Atalar demişkən, “Görünən dağa nə bələdçi”. Sizin gördüyünüz işlər göz qabağındadır. Bütün bu işlərin xüsusi bir istedadın və zəhmətin bəhrəsi olduğunu deyə bilərik. Lakin çox təəssüf ki, bütün bu zəhməti və gərgin fəaliyyəti yüksək qiymətləndirmək əvəzinə, bəzi nankorlar və xarici qüvvələrin təsiri altına düşmüş nadanlar sosial şəbəkələrdə əks mövqe yaratmağa çalışmaqdadırlar. Ancaq elin gözü tərəzidir. Xalq artıq kimin kim olduğunu yaxşı dərk edir və hər şeyi ədalətli şəkildə qiymətləndirə bilir. Odur ki, Sizin bu danılmaz fəaliyyətiniz biz din xadimləri tərəfindən də yaxşı qarşılanır və yüksək qiymətləndirilir. Biz hər zaman Prezidentimizin, dövlətimizin arxasındayıq”.

Şabran rayonundan **İlhamə Şahpələngova:** “Hörmətli cənab Prezident, koronavirusun yayıldığı ölkələrin sayı və cəmiyyətə təsiri bütün dünya ictimaiyyətini bu pandemiya ilə mübarizə üçün ayağa qaldırıb. Azərbaycanda da Sizin rəhbərliyinizlə virusun yayılmasının qarşısının alınması istiqamətində lazımi tədbirlər həyata keçirilir. Bu ağır günlərdə xalqımıza arxa və dayaq olduğunuza, vətəndaşların üzləşdiyi çətinliklərdə onlara kömək göstərdiyinizə görə Sizə minnətdarıq. Sizin qayğınız, doğma münasibətiniz bu çətin günlərdə bizdə böyük inam yaratdı. Əminik ki, xalqımız Sizin ətrafınızda daha sıx birləşərək bu sınaqdan da üzüağ çıxacaqdır. Çox sağ olun. Allah Sizi qorusun!”

Zərdab rayonunun Şahhüseynli kəndindən **Eyyub Eyyubov:** “Möhtərəm cənab Prezident, Sizin apardığınız məqsədyönlü daxili və xarici siyasətiniz nəticəsində ölkəmiz hər gün daha da inkişaf edir. Hazırda bəşəriyyətə yayılmış COVID-19 virusunun dünya iqtisadiyyatına güclü təsir etməsinə baxmayaraq, Sizin diqqət və qayğınız nəticəsində ölkəmizin iqtisadiyyatı dayanıqlı olduğunu göstərdi. Buna görə Zərdab rayonunun Şahhüseynli kəndinin dindarları adından və şəxsən öz adımdan Sizə dərin minnətdarlığımızı bildirirəm. Sizin hərtərəfli siyasətinizi hər zaman dəstəkləyirik. Cənab Prezident, son zamanlar sosial şəbəkələrdə bəzi şəxslərin dövlətimizin əleyhinə səsləndirdiyi ifadələri qəbuledilməz hesab edirik. İnanırıq ki, qısa zamanda bu kimi xoşagəlməz halların qarşısı alınacaqdır. Allah-Təala Sizi və ailənizi qorusun!”

Quba rayonundan **Abdul Paşayev:** “Zati-aliləri cənab Prezident, bu gün Azərbaycan vətəndaşları Sizi özlərinə ən etibarlı dost, qayğıkeş ailə üzvü bilirlər. Fikrimcə bu, çox ədalətli yanaşmadır. Çünki Sizin işlərinizin bəhərini, səmərəsini Azərbaycanın hər bir ailəsində müşahidə etmək mümkündür. Bütün bunları görənlər Sizə xoş ürək sözlərini ifadə edir, təşəkkür məktubları ünvanlayır, görməyənlər isə gərək problemi başqa yerdə axtarsınlar, bəzi nadanlar kimi, xarici sifarişlər əsasında təşkil edilən qarayaxma kampaniyalarının iştirakçısına çevrilməsinlər. Cənab Prezident, qeyd etmək istəyirəm ki, mən özüm əliləm və dövlətimizin qayğısını hər zaman hiss edirəm. Bir müddət bundan əvvəl qəzalı evimin təmiri ilə əlaqədar etdiyim müraciətim nəzərə alındı və lazımi işlər görüldü. Bundan əlavə, bu yaxınlarda çətin pandemiya dövründə iki ayı əhatə edən birdəfəlik yardım almışam. Bunlar olmasaydı, indi həyatım necə olardı?! Düşünürəm ki, qayğı görən mənim kimi insanlar çoxdur və hər birinin alqışı, duası Sizinlədir, əziz Prezidentim. Ömrünüz uzun, yolunuz hər zaman açıq və işıqlı olsun!”

Kəlbəcər rayonundan məcburi köçkün **Heydər Cəfərov:** “Möhtərəm cənab Prezident, Siz Azərbaycanın müstəqilliyi uğrunda canını fəda etmiş şəhidlərimizin ailələrinə hər zaman xüsusi diqqət və qayğı göstərir, onların problemlərinin aradan qaldırılması ilə bağlı tapşırıqlar verirsiniz. Bu diqqət və qayğı xalqımız tərəfindən məmnunluqla qarşılanır. Şəhid ailələrinin, əlillərin, məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi, onların hər cür qayğı ilə əhatə olunması Sizin həyata keçirdiyiniz siyasətin əsas istiqamətlərindən birini təşkil edir. Bu istiqamətdə imzaladığınız fərman və sərəncamlar çox sayda ailəyə böyük sevinc bəxş edib, vətəndaşlarımız tərəfindən təqdirəlayiq hal kimi qiymətləndirilib. Şəhid ailəsi kimi biz də bu diqqət və qayğıdan kənarda qalmamışıq. Şəhid ailələrinə verilən 11 min manat məbləğində birdəfəlik müavinətlə təmin olunmağımız dövlətimizin bizə göstərdiyi davamlı dəstəyin daha bir bariz göstəricisidir. Şəhid ailələrinə, məcburi köçkünlərə göstərilən qayğı nümunəvi və davamlı xarakter daşıyır. Bu münasibətə apardığınız uğurlu işlərə görə ailəmiz adından Sizə təşəkkürümüzü bildiririk. Allah Sizi qorusun!”

Bakı şəhərinin sakini, Əməkdar artist **Yasəf Eyvazov:** “Möhtərəm Prezident, cənab Ali Baş Komandan, Sizi səmimiyyətlə salamlayır, Sizə dərin hörmət və ehtiramımı bildirirəm. Hazırda dünyamızın çox ağır bir vəziyyətlə üzləşdiyi, amansız xəstəliklə mübarizə apardığı vaxtda Siz uzaqgörən siyasətiniz nəticəsində ölkəmizdə dərhal qabaqlayıcı tədbirlərə başlayaraq epidemiyanın sürətlə yayılmasının qarşısını aldınız və vətəndaşların təhlükəsizliyini bütün işlərdən üstün tutdunuz. Sizin mədəniyyətimizə, musiqimizə, milli-mənəvi dəyərlərimizə olan diqqət və qayğınızı da yüksək qiymətləndirir, ürəkdən alqışlayıram. Bu problemlər arasında biz musiqiçiləri və incəsənət xadimlərini də yaddan çıxarmayıb əməyimizi yüksək dəyərləndirdiyiniz və mükafatlandırdığınıza, şəxsən məni Prezident mükafatına layiq gördüyünüzə görə şəxsən öz adımdan və ailəmin adından Sizə dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm. Çox sağ olun, cənab Prezident! Allah Sizi, ailənizi və xalqımızı qorusun!”.

# XİN: “Etnik və dini zəmində nifrət, düşmənçilik və dözümsüzlük Ermənistanın siyasətinin əsasını təşkil edir”

Ermənistan Xarici İşlər Nazirliyinin Azərbaycanı nifrət nümayiş etdirən çıxışları ilə ittiham etməyə cəhd göstərən son açıqlamaları bu ölkənin beynəlxalq qurumların qəbul etdiyi qərarları özbaşına və seçilmiş şəkildə şərh etmək təcrübəsini bir daha üzə çıxarır.

Ənənəvi əsassız iddialar səsləndirməklə Ermənistan beynəlxalq birliyi yanıltmaq, diqqəti öz irqçi siyasətindən və nifrət zəminində törətdiyi cinayətlərdən - Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf yeddi rayonunun qeyri-qanuni hərbi işğalından, təcavüz zamanı yüz minlərlə azərbaycanlının hüquqlarının və əsas azadlıqlarının ciddi şəkildə pozulması faktından yayındırmaq məqsədi güdür.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda yer alıb.

Bəyanatda həmçinin deyilir: “Azərbaycana qarşı müharibəni başlatdığına və beynəlxalq səviyyədə tanınmış ərazilərinin beşdəbir hissəsini zəbt etdiyinə görə tam məsuliyyət daşıyan, işğal olunmuş ərazilərdə etnik təmizləmə həyata keçirən, münaqişə zamanı digər ağır cinayətlər törədən, irqçi ideologiyanı müdafiə edən, BMT Təhlükəsizlik Şurasının 822 (1993), 853 (1993), 874 (1993) və 884 (1993) saylı qətnamələrinə, Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarına, habelə digər beynəlxalq təşkilatların qərar və sənədlərinə açıq-aşkar laqeydlik göstərən Ermənistan özünün davamlı şəkildə pozduğu standartlar və dəyərlərlə başqalarını ittiham edə bilməz.

Ermənistan bütün qeyri-erməniləri, o cümlədən azərbaycanlıları ölkədən qovmaqla monoetnik ölkəyə çevrilmişdir. Ermənistan etnik cəhətdən homogen ərazilər yaratmaqla bağlı eyni siyasət və təcrübəsini, bütün qeyri-ermənilərin qovulduğu və oyuncaq rejim yaratdığı Azərbaycanın işğal edilmiş ərazilərinə də tətbiq edib.

Etnik və dini zəmində nifrət, düşmənçilik və dözümsüzlük Ermənistanın siyasətinin əsasını təşkil edir və bu ölkə rəhbərliyinin ermənilərlə azərbaycanlılar arasında “etnik uyğunsuzluğa” aşkar inamının sübutudur. Beynəlxalq ictimaiyyət dəfələrlə Ermənistanın bu cür iyrənc fikirləri açıq şəkildə təbliğ etməsinə öz etirazını bildirib və Ermənistanda hökm sürən dözümsüzlük ruhu, bu ölkədə həyata keçirilən ayrı-seçkilik siyasəti və təcrübələri ilə bağlı ciddi narahatlığını ifadə edib.

Ermənistan insan hüquqları standartlarına və Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarına münasibətdə riyakarlıq və seçici yanaşmasına son qoymalı, eyni Məhkəmənin “Çıraqov və digərləri Ermənistana qarşı” adlı 2015-ci il 16 iyun tarixli qərarının icrasına başlamalıdır. Məlum olduğu kimi, Avropa Məhkəməsinin Böyük Palatası təqdim olunan sübutları araşdıraraq Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və digər işğal olunmuş əraziləri üzərində nəzarəti həyata keçirdiyini təsbit etmiş, bu ölkənin azərbaycanlı məcburi köçkünlərin hüquqlarının pozulmasına görə məsuliyyət daşıdığını bildirmiş, onların işğal olunmuş ərazilərdəki evlərinə və doğma yurdlarına qayıtmaq hüquqlarını bir daha təsdiq etmişdir.

Münaqişənin davam etməsinin və bunun nəticəsində bölgədə gərginliyin ara-sıra artmasının başlıca səbəbi Azərbaycan ərazilərinin qanunsuz işğalı və Ermənistanın bu vəziyyəti möhkəmləndirmək cəhdləridir. İlk növbədə Ermənistanın təcavüzünün nəticələri aradan qaldırıldıqdan sonra, yəni BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələbinə uyğun olaraq Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması, ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünün bərpa olunması, yüz minlərlə azərbaycanlı məcburi köçkünün hüquqları və əsas azadlıqlarının, o cümlədən onların evlərinə, mülklərinə geri qayıtmaq hüququnun təxirə salınmadan təmin edilməsindən sonra sülh, təhlükəsizlik və sabitliyə nail olmaq mümkündür”.

# Azərbaycan-Braziliya parlamentlərarası əlaqələri müzakirə olunub

İyunun 10-da Milli Məclisin Braziliya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Müşfiq Məmmədli ilə Braziliya Federativ Respublikası Milli Konqresinin Deputatlar Palatası və Senatının Azərbaycan-Braziliya parlamentlərarası əlaqələr üzrə dostluq qruplarının rəhbərləri arasında videokonfrans formatında görüş keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Müşfiq Məmmədli həmkarlarını salamlayaraq ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olduğunu deyib. Bildirildi ki, Braziliya dünyanın ən sürətli inkişaf edən ölkələrindən biridir. Ölkəmiz Braziliya ilə münasibətlərin inkişafında maraqlıdır və bunun üçün kifayət qədər böyük potensial var. Deputat bildirib ki, parlamentlər səviyyəsində əlaqələrimizin dərinləşməsində hər iki ölkənin qanunvericilik orqanlarında dostluq qruplarının fəaliyyət göstərməsi təqdirəlayiqdir. Qeyd edildi ki, deputatların qarşılıqlı səfərləri əməkdaşlığın yeni mərhələyə qaldırılmasında mühüm rol oynaya bilər.

Müşfiq Məmmədli videokonfransda hazırda dünyanı bürümüş koronavirus pandemiyası ilə mübarizə sahəsində ölkəmizdə görülən işlər barədə məlumat verib. Diqqətə çatdırılıb ki, dövlət başçısı İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə görülmüş qabaqlayıcı tədbirlər xeyli müsbət nəticə verib. Hazırda ölkəmizdə koronavirusla mübarizə sahəsində 7 mindən çox çarpayı fondu olan 21 xəstəxana fəaliyyət göstərir. Azərbaycanda əhali sayına düşən həm yoluxma göstəricisi, həm də koronavirusdan ölüm sayı digər ölkələrlə müqayisədə dəfələrlə aşağıdır, dövlətimiz COVID-19 pandemiyası ilə mübarizədə bütün imkanlarını səfərbər edib.

Sonra Braziliya Federativ Respublikasının Milli Konqresinin Federal Senatının birinci vitse-spikeri, Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri Antonio Anastasiya səmimi görüş üçün minnətdarlığını bildirib, Azərbaycanın son illərdə əldə etdiyi nailiyyətlərin Braziliya tərəfindən yüksək qarşılandığını diqqətə çatdırıb. O, parlament dostluq qruplarının fəaliyyətindən söz açıb, qarşılıqlı səfərlərin intensivləşdirilməsinin vacib olduğunu vurğulayıb.

Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər barəsində fikir mübadiləsi aparılıb.

Videokonfransda Senatın Azərbaycan-Braziliya parlamentlərarası dostluq qrupunun rəhbəri Kladio Kajado, Braziliya Respublikasının Azərbaycandakı səfiri Manuel Monteneqro, Azərbaycanın Braziliyadakı səfiri Elxan Poluxov əməkdaşlığımızın siyasi, iqtisadi, humanitar əhəmiyyətini yüksək qiymətləndiriblər.

# Əmək şəraiti zərərli və ağır işlərdə çalışanların güzəştli pensiya təminatına əlçatanlığı artırılır

Əmək şəraiti, xüsusilə zərərli və ağır işlərdə azı 12 il 6 ay çalışmış kişilərin və azı 10 il çalışmış qadınların yaş həddi 5 il azaldılmaqla onlara yaşa görə əmək pensiyası hüququnun verilməsi nəzərdə tutulur.

Pensiya təyin edilərkən həm pensiya kapitalının, həm də ümumi stajın (kişilər üçün 25 il, qadınlar üçün 20 il) eyni anda tələb olunması zərurətinin aradan qaldırılması təklif edilir.

Həmin kateqoriyadan olan vətəndaşlar üçün bu humanist yanaşma pensiya qanunvericiliyində dəyişikliklər edilməsinə dair Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən hazırlanmış yeni layihədə əksini tapır. Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, layihədə əmək şəraiti, xüsusilə zərərli və ağır işlərdə çalışanların tələb olunan qədər stajı olmadığı hallarla bağlı da humanist yanaşma özünü göstərir. Belə hallar üçün tələb olunan pensiya kapitalının məbləğinin 30 faizə qədər azaldılması təklifi layihədə öz əksini tapıb və bu, onların pensiya hüququna əlçatanlığını artırır.

Qeyd edək ki, güzəştli şərtlərlə yaşa görə pensiya hüququ verən istehsalatların, işlərin, peşələrin, vəzifələrin və göstəricilərin siyahıları Nazirlər Kabineti tərəfindən təsdiqlənir. Əmək şəraiti, xüsusilə zərərli və ağır olan işlər də həmin siyahı əsasında müəyyən olunur.

# Azərbaycanda COVID-19-a daha 339 nəfər yoluxub, 114 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 339 yeni yoluxma faktı qeydə alınıb, 114 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 4 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 8530 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 4720 nəfər müalicə olunaraq sağalıb, 102 nəfər vəfat edib. Aktiv xəstə sayı 3708 nəfərdir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 356 min 32 test aparılıb. Bugünkü test sayı isə 6832-dir.

# Azərbaycan alimləri dövlətin qayğısından razıdırlar

Hər bir xalqın ən böyük xoşbəxtliyi onun müstəqilliyi, azadlığı ilə bilavasitə bağlıdır. Dünya dövlətləri içərisində, bütün beynəlxalq təşkilatlarda özünə yer tutaraq suveren bir dövlət kimi tanınmaq, taleyini öz əlləri ilə həll etmək arzusu dünyada olan beş minədək xalqın bir çoxunun ən böyük istəyi olsa da, indiyədək təxminən 200 dövlət qurulmuşdur.



Bu baxımdan Azərbaycan xalqı xoşbəxt xalqlar sırasındadır və müstəqillik illərində iqtisadi baxımdan xeyli inkişaf etdiyi üçün daha xoşbəxtdir. 30 ilə yaxın müstəqillik tariximizin yarıdan çoxu bu iqtisadi uğurların baş memarı Heydər Əliyevin siyasi kursunu inamla davam etdirən möhtərəm Prezident İlham Əliyevin adı ilə bağlıdır. Praqmatik liderlik keyfiyyətlərinə malik olan Prezident İlham Əliyev Azərbaycanın müasir dövlətə çevrilməsini milli ideyanın başlıca hədəfi kimi müəyyənləşdirmişdir. Onu yeni dövrün tələblərinə uyğun zənginləşdirmiş, sosial-iqtisadi islahatlarla demokratikləşmə proseslərinin paralel şəkildə aparılmasına, birinin digərini tamamlamasına çalışmışdır.

Ötən illər respublika iqtisadiyyatında islahatlar kursu inamla davam etdirilmiş, xüsusən də, regional inkişafa, qeyri-neft sektorunun yüksəlişinə, infrastrukturun müasirləşdirilməsinə, neft amilindən asılılığın minimuma endirilməsinə, sahibkarlığın inkişafına və güclü insan kapitalının formalaşdırılmasına xidmət edən mühüm addımlar atılmışdır. O, milli təhsil konsepsiyasının müasirləşdirilməsini, "iqtisadi potensialı insan kapitalına çevirmək" strategiyasının reallaşmasını, Azərbaycanda güclü intellektual bazanın, müasir biliklərə əsaslanan yeni tipli iqtisadi sistemin formalaşdırılmasını cəmiyyət həyatındakı müsbət dəyişikliklərin fundamenti hesab edir.

İndi dünyanın bütün ölkələrində koronavirusla bağlı problemlər yaşanan çətin sınaq dövründə ölkə rəhbərinin göstərdiyi iradə və mətinlik ən yüksək qiymətə layiqdir. Priventiv qərarlar, xalqımızın sağlamlığının qorunması, təhlükəsizliyinin təmin olunması istiqamətində atılan innovativ addımlar, qabaqlayıcı tədbirlər artıq öz nəticəsini vermiş, ümumbəşəri bəla olan koronavirus pandemiyası ilə mübarizədə dünyanın inkişaf etmiş dövlətlərinin belə aciz qaldığı vəziyyətdən minimum ziyanlarla çıxmağımızı şərtləndirmişdir. Məhz hazırkı mürəkkəb tarixi mərhələdə pandemiya ilə mübarizə istiqamətində Azərbaycanın nümunəvi təcrübəsi artıq bir çox ölkələr tərəfindən fəaliyyət proqramı kimi geniş şəkildə istifadə olunur. Koronavirus fəlakətini, bu və ya digər səbəblərdən dünya iqtisadiyyatında yaranmış ciddi böhranı və onun təzahür formalarından biri kimi neftin qiymətində baş verən kəskin ucuzlaşmanı Azərbaycanın hazırlıqlı qarşılaması respublikada son illər aparılmış genişmiqyaslı islahatların, kadrların düzgün seçilməsi, rəhbər komandanın elmi əsaslarla formalaşdırılması və vahid orqanizm şəklində çalışması sayəsində mümkün olmuşdur. Bu çətin günlərdə Birinci vitse-prezident Mehriban xanım Əliyeva xalqa bir neçə dəfə müraciət etdi: "Hələ bir il bundan əvvəl bizim əksəriyyətimiz sadəlövhcəsinə güman edirdik ki, bu günədək bəlli olmayan və insan həyatına son qoyan təhlükəli xəstəliklər dövrü geridə qalıb. Reallıq isə fərqli oldu". Mehriban xanım bu məsələdə baxışından, düşüncəsindən asılı olmayaraq, bütün vətəndaşlarımıza həmrəy oldu, gözə görünməz dəhşətli bəlaya qarşı birgə mübarizə aparmağı, məsuliyyətli olmağı, Operativ Qərargahın verdiyi təlimatlara ciddi riayət etməyi tövsiyə etdi. Görülən əməli işlərin və çağırışların şahidi kimi biz bu mübarizədə yenə də hər zaman olduğu kimi öndə Azərbaycan Prezidenti İlham Əliyevi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanı gördük. Azərbaycan xalqı bir daha öz xoşbəxt gələcəyini, sağlamlığının müdafiəsini və təhlükəsizliyinin təmin edilməsinin etibarlı əllərdə cəmləşdiyinə əmin oldu.

Son dövrlərdə ölkədə zəruri tibbi vasitələr, avadanlıq və ləvazimatlarla təminat yaxşılaşdırılır, ən müasir tələblərə cavab verən səhiyyə obyektləri istifadəyə verilir, yenilərinin inşası planlaşdırılır, xaricdə çalışan həkimlər, tibb üzrə alimlər ölkədə gedən proseslərə cəlb edilir. Bütün bunlar xalqın rifahı, təhlükəsizliyi və sağlamlığı naminə həyata keçən işlərdir. Bu gün Azərbaycanda nəinki koronavirus pandemiyası ilə ciddi mübarizə aparılaraq insanların həyatı xilas olunur, həmçinin əhalinin sosial rifahının yaxşılaşdırılması üçün əsaslı tədbirlər reallaşdırılır, postpandemiya dövründə iqtisadiyyatın inkişafı üçün müxtəlif proqramlar qəbul edilir. Bu il mayın 4-də cənab İlham Əliyevin təşəbbüsü və sədrliyi ilə videokonfrans formatında Qoşulmama Hərəkatının Zirvə görüşünün keçirilməsi, burada 120 ölkənin, o cümlədən Afrika İttifaqından 55 ölkənin, Avropa İttifaqından 27 ölkənin iştirakı, həmin görüşə Birləşmiş Millətlər Təşkilatının Baş katibi Antonio Quterreşin, BMT Baş Assambleyasının prezidenti, Afrika İttifaqının sədri, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru və Avropa Komissiyasının vitse-prezidentinin qatılması Azərbaycanın beynəlxalq arenada çox yüksək nüfuz qazanmasının bariz nümunəsidir. Ölkə Prezidenti müsahibələrinin birində bununla bağlı çox dəqiq qeyd etdi ki, "Azərbaycan və Azərbaycanın təşəbbüsü praktiki olaraq bütün dünyanı birləşdirdi".

Ölkəmizin son illərdə əldə etdiyi uğurlar, yüksək nailiyyətlər Yeni Azərbaycan Partiyasının fəaliyyəti ilə bilavasitə bağlıdır. YAP Ümummilli Lider Heydər Əliyevin ideyalarını gerçəkliyə çevirən nüfuzlu bir siyasi təşkilatdır. Yarandığı ilk günlərdən müstəqilliyimizin qorunması, dövlətimizin dünyada layiqli yer tutması, dövlətçiliyimizin möhkəmləndirilməsi, iqtisadiyyatımızın inkişaf etdirilməsi, demokratiyanın bərqərar olması kimi mühüm vəzifələrin icrası istiqamətində mühüm işlər görmüş Yeni Azərbaycan Partiyası bu gün ölkəmizin inkişafına öz layiqli töhfələrini verir. Həyata keçirilən islahat konsepsiyasında avanqard rol Yeni Azərbaycan Partiyasına məxsusdur. Cəmiyyətin sosial-psixoloji impulslarını dəqiq müşahidə etmək, ölkədəki ictimai-siyasi durumu düzgün araşdırmaq, əhalinin mənəvi ovqatını, daim yenilənən baxış və gözləntilərini aydın müəyyənləşdirmək xalqın partiyası olan YAP-ın tarixi missiyasıdır. Heydər Əliyev ideyaları əsasında işini davam etdirən Yeni Azərbaycan Partiyası zamanın nəbzini dəqiqliklə tutaraq strateji hədəfləri, taktiki gedişləri dəqiq müəyyənləşdirir və Azərbaycanda misli görünməmiş dəyişikliklərə müəlliflik edir.

Son illər Azərbaycanda elm sahəsində aparılan uğurlu islahatlar, qəbul edilən fərman və sərəncamlar müsbət nəticələrə gətirib çıxarmış, Azərbaycan alimlərinin beynəlxalq aləmə inteqrasiyası istiqamətində mühüm nailiyyətlər əldə olunmuşdur. Bu gün elm və təhsil sahəsində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, dünya elminin tələblərinə cavab verən multidissiplinar tədqiqatların aparılması, elmi-texniki potensialın qorunub saxlanılması, eləcə də yüksəkixtisaslı kadrların hazırlanması dövlət siyasətinin əsas istiqamətlərindəndir. Müasir dövrdə dayanıqlı inkişafın əsasında elmi-texniki tərəqqinin rolunu və əhəmiyyətini ciddi bir faktor kimi qəbul edən Azərbaycan Prezidenti ölkəmizdə elmin inkişafı, elmi-texniki potensialın qorunub saxlanılması və modernləşdirilməsi, elm və təhsil sahəsində yüksəkixtisaslı kadrların hazırlanması, onlara daim qayğı göstərilməsi, cəmiyyətdə alimlərin, elm və təhsil işçilərinin nüfuzunun artırılması, respublikada alınmış elmi nəticələrin xaricdə tanıdılması, elmi tədqiqatların infrastrukturunun modernləşdirilməsi sahəsində bir sıra mühüm qərarlar qəbul edib. 2009-cu ildə "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya"nın müəyyənləşdirilməsi, 2010-cu ildə Elm fondunun təsis edilməsi, 2016-cı ildə "Elm haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi, 2017-ci ildə Yüksək Texnologiyalar Parkının yaradılması və Azərbaycan Milli Elmlər Akademiyasının dünya elminə inteqrasiyası istiqamətində atılan addımlar bu sahəyə xüsusi diqqətin göstəricilərindəndir. Belə addımlardan biri də ölkəmizdə yeni elm sahəsi kimi nanotexnologiyanın təşəkkülüdür. Prezident İlham Əliyevin 2004-cü il oktyabrın 4-də Rumıniyaya rəsmi səfəri zamanı Azərbaycan və Rumıniya universitetləri arasında nanotexnologiya istiqamətində müqavilə imzalanmış, dövlət başçısının göstərişinə əsasən bir il sonra BDU-da Nano Araşdırmalar Mərkəzi, ardınca Nanomaterialların kimyəvi fizikası kafedrası yaradılmış və dünya elminin bu prioritet istiqaməti üzrə tədqiqatlara başlanmışdır. Universitet alimləri müxtəlif texnoloji üsullarla nanohissəciklərin alınması, stabilləşdirilməsi, xassələri və tətbiq imkanlarının müəyyən edilməsi ilə texnika, tibb, neft, ekologiya, kənd təsərrüfatı və hərbi sahələrdə uğurlu nəticələr əldə etdilər. Belə ki, BDU alimləri ilk dəfə olaraq nanohissəciklərin bitki hüceyrələrinin membranından daxilinə diffuziya yolu ilə keçərək həmin hüceyrənin həyat fəaliyyətinin pozulmasına səbəb olduğunu müəyyənləşdirdilər ki, bununla dünyada yeni bir elmi istiqamətin-nanotoksikologiyanın əsası qoyuldu. Bununla yanaşı, məhz həmin laboratoriyada dərman maddələrinin digər hüceyrələri zədələmədən xəstə hüceyrələrə daşına bilməsi, metal əsaslı nanohissəciklərlə yükləndikdən sonra bitki toxumlarının şoran torpaqlarda inkişaf qabiliyyətinin artması, şiş hüceyrələrinə maqnit nanohissəcikləri vasitəsilə dərman maddələrinin daşınması kimi çox mühüm uğurlar əldə edildi. Nanoaraşdırmalar Mərkəzinin əldə etdiyi uğurlar dünyanın bir çox elm mərkəzlərinin, o cümlədən ABŞ-ın Massaçutes Texnologiya Universiteti, Yaponiyanın Kumamoto universiteti, İsveçrənin Lozanna Politexnik Federal İnstitutu və digər nüfuzlu qurumların diqqət mərkəzinə düşdü və onlarla intensiv əlaqələr quruldu.

Nəticədə İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESKO) "Elm və Texnologiya sahəsində 2012-ci ilin ICESKO mükafatı"nı nanomateriallar və nanotexnologiyalar sahəsindəki böyük uğurlarına görə Bakı Dövlət Universitetinə vermişdir. Fərəhli haldır ki, bu tədqiqatlar ICESKO-nun üzvü olan 56 müsəlman ölkəsi arasında sosial-iqtisadi əhəmiyyətli elmi-texniki problemlərin həll olunması uğrunda görülən mühüm işlərin ən yaxşısı kimi dəyərləndirilmiş, ilk dəfə azərbaycanlı alimlərə təqdim edilmişdir.

Yeri gəlmişkən qeyd edək ki, müxtəlif vaxtlarda Nano Araşdırmalar Mərkəzində olan Nobel mükafatı laureatları Robert Laflin, David Gross, John Polanyi, Markus Rudolf Artur aparılan araşdırma işlərinə yüksək qiymət vermiş və universitet alimlərinin bu istiqamətdə inkişaf etmiş ölkələrin alimləri ilə bərabər səviyyəli işlər apardıqlarını vurğulamışlar. Son illərdə Mərkəzdə Fransa, İtaliya, Almaniya, İspaniya, Çexiya, Yaponiya və digər ölkələrlə uğurla yerinə yetirilən layihələrin ümumi həcmi təqribən 10 milyon ABŞ dolları həcmindədir və bu, bir daha göstərir ki, beynəlxalq səviyyədə yalnız Azərbaycanın təbii resurslarına, kənd təsərrüfatına deyil, həm də elminə investisiya qoyulur. Bu, dövlət başçısının Azərbaycanda elmin inkişafına, alimlərimizin beynəlxalq nüfuzunun yüksəlməsinə göstərdiyi qayğının daha bir bariz nümunəsidir. Elmin, təhsilin, mədəniyyətin inkişafı istiqamətində atılan uzaqgörən addımlar, səmərəli investisiya və innovasiya siyasətinin aparılması, istehsalın müntəzəm olaraq modernləşdirilməsi, intellektual mülkiyyətin inkişafı və ölkənin əmək potensialından səmərəli istifadə edilməsi Azərbaycan Prezidentinin daim diqqət mərkəzində saxladığı məsələlərdəndir.

Ölkə rəhbəri əsas vəzifəsini xalqına xidmətdə görür və hər bir məmurdan da bunu tələb edir. Yürütdüyü siyasətin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları dayanır. Elə buna görə də xalq öz liderinə bütün zamanlarda böyük dəstək göstərib və göstərir.

Bu ardıcıl, çoxşaxəli və müdrik siyasətin nəticəsidir ki, bu gün dünyada Azərbaycana inanırlar, etibar edirlər və respublikamız dünyanın mədəniyyət mərkəzinə çevrilmişdir. Azərbaycan "Eurovision" mahnı müsabiqəsinə, I Avropa Oyunlarına, IV İslam Həmrəyliyi Oyunlarına, Qadınlar arasında futbol üzrə dünya çempionatına, "Formula-1" yarışlarına, şahmat, gimnastika, cüdo üzrə dünya birinciliklərinə, futbol üzrə Avropa Liqasının final oyununa yüksək səviyyədə evsahibliyi etmiş, bütün bu tədbirlər yüksək təşkilatçılıq və təhlükəsizlik şəraitində reallaşmışdır. Bu gün ölkəmiz hərtərəfli inkişaf edir, respublikanın ümumi tərəqqisində milli resurslardan istifadə imkanlarının daha səmərəli və elmi əsaslar üzərində səfərbər olunması, siyasi və iqtisadi idarəetmə metodlarının müasirləşdirilməsi ölkəmizi dünyada maraqla qarşılanan və bir çox dövlətlər üçün örnəyə çevrilən milli inkişaf modelinə sahib etmişdir. Əldə olunan möhtəşəm uğurlar cənab Prezidentin, ilk növbədə, ölkədə sosial ədalət prinsiplərinin yüksək səviyyədə təminatına yönələn siyasi kursun, müasir yanaşmalara əsaslanan mükəmməl islahatlar konsepsiyasının Cənubi Qafqaz məkanında iqtisadi qüdrətinə görə öndə olan Azərbaycanın perspektiv strateji hədəflərinə nail olması və inkişaf etmiş güclü dövlətlər sırasında yer alması üçün də alternativsiz olduğunu təsdiq edir.

*Azərbaycan heç vaxt tarixdə bu qədər güclü, bu qədər müstəqil və azad olmayıb. Ulu Öndər Heydər Əliyevin yaratdığı və şah əsəri olan müstəqil Azərbaycan dövləti bu gün daha möhtəşəm, daha nüfuzlu, daha füsunkardır.*

***Abel MƏHƏRRƏMOV,***
***YAP İdarə Heyətinin və Siyasi Şurasının üzvü,***
***YAP Elm və Təhsil Komissiyasının sədri, akademik***

# Heç bir sosial infrastruktur layihəsi ixtisar edilməyəcək

## Son aylar Azərbaycanda bu qəbildən olan onlarca obyekt istifadəyə verilib

*Əvvəli 1-ci səh.*

Beləliklə, qətiyyətli və uzaqgörən dövlət başçısının rəhbərliyi ilə Azərbaycanın müxtəlif şəhər və bölgələrində yeni sosial infrastruktur obyektləri istifadəyə verilir. May və iyun aylarında başa çatmış həmin layihələrdən bir neçəsini göstərmək kifayətdir.

Mayın 7-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda modul tipli xəstəxana kompleksinin açılışında iştirak etdilər.

Tikintisi üç həftə ərzində tamamlanan modul tipli bu ilk xəstəxana kompleksi 1 saylı Kliniki Tibbi Mərkəzin nəzdində fəaliyyət göstərir. Üç korpusdan, 100 palatada 200 çarpayı yerindən ibarət kompleksdə orta-ağır simptomlu infeksion xəstələrin qəbulu və müalicəsi üçün hərtərəfli şərait yaradılıb. İyun ayının 9-da isə Sumqayıt şəhərində, paytaxtın Bilgəh qəsəbəsində və Abşeron rayonunun Saray qəsəbəsində növbəti üç belə xəstəxananın açılışı oldu.

Qeyd edək ki, modul tipli yardımçı xəstəxana korpusları mühüm üstünlüklərə malikdir. Çünki sadə beton bünövrə üzərində quraşdırılan bu tikililər pandemiya ilə mübarizə başa çatdıqdan sonra, yəni artıq zərurət olmadıqda asanlıqla digər sahələrə köçürülə və başqa məqsədlər üçün də istifadə edilə bilər.

Son vaxtlar istifadəyə verilən əhəmiyyətli obyektlərdən biri də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Bakının Nizami rayonunda yerləşən 3 saylı DOST mərkəzidir. Mərkəzin xidmətindən paytaxtın Nizami, Suraxanı və Sabunçu rayonlarının sakinləri bəhrələnəcəklər. Burada əhaliyə pensiya, sosial sığorta, sosial müavinət, övladlığa götürmə, əlillik, əmək və məşğulluq, bank, notariat, həmçinin Tibbi Sosial Ekspertiza Komissiyasının xidmətləri göstəriləcək. Xatırladaq ki, 2019-2025-ci illərdə 31 DOST mərkəzinin istifadəyə verilməsi nəzərdə tutulub. Onlardan 5-i Bakıda, 26-sı isə regionlarda olacaq.





Beləliklə, bu gün ölkədə həyata keçirilən sosial islahatların əsas məqsədi insanların rahatlığını təmin etmək və yaşayış səviyyəsini yüksəltməkdir. Dövlət aztəminatlı və xüsusi diqqət tələb edən təbəqənin sosial qayğılarının həllini ən vacib məsələlərdən biri sayır. Məsələyə kompleks yanaşma əhalinin bütün təbəqələrini əhatə etməyə imkan verir. Bu sırada qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır. Artıq bu kateqoriyadan olan insanlar üçün ölkənin müxtəlif ərazilərində salınan yeni qəsəbələrdə və müasir yaşayış komplekslərində 300 mindən çox insan məskunlaşıb. Şəhid ailələrinin, müharibə veteranlarının mənzillərlə təmin olunması da dövlətin sosial siyasətinin prioritetləri sırasına daxildir.

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın açılışında iştirak etdikləri "Qobu Park-3" yaşayış kompleksinin istifadəyə verilməsi bu siyasətin davamlı olmasının göstəricisidir. Məcburi köçkünlər üçün salınmış yeni kompleks Bakının Qaradağ rayonununun Lökbatan qəsəbəsindəki "Qobu Park-1" və "Qobu Park-2"nin yanında inşa edilib. Bütün bu yaşayış komplekslərinin inşası Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilib. "Qobu Park-3"də 10 mərtəbəli 13 yaşayış binası inşa olunub.

Təbii fəlakətdən zərər çəkən vətəndaşların problemləri də hər zaman diqqət mərkəzindədir. Digər ölkələrdən fərqli olaraq Azərbaycanda təbii fəlakətin fəsadları vətəndaşın dövlətə etimadı, dövlətin isə vətəndaşın qayğısına qalmaq vəzifəsinin birliyi sayəsində həll olunur.

Dövlət başçısı və birinci xanım bu ilin may ayında Şamaxı rayonuna səfərləri çərçivəsində keçən ilin fevralında rayonda zəlzələdən zərər çəkənlər üçün inşa edilmiş binadakı mənzillərə baxıblar. Zəlzələdən sonra bu rayonda bütövlükdə 205 ev tikilib, bir çox evlərdə təmir və bərpa işləri aparılıb.

Yeri gəlmişkən, Şamaxı şəhərində Heydər Əliyev Fondunun inşa etdiyi 2 nömrəli körpələr evi-uşaq bağçasının və rayonun Meysəri kəndində əsaslı təmir olunan körpələr evi-uşaq bağçasının açılışları da həmin vaxt olub.

Təqdirəlayiq haldır ki, istifadəyə verilən sosial infrastrukturun xeyli hissəsi bölgələrin payına düşür. Dövlət başçısı iyun ayının əvvəlində Tərtər və Ağcabədi rayonlarına səfəri zamanı bu qəbildən olan bir sıra obyektlərin açılışında iştirak edib. Belə ki, Tərtər rayonunda 6 min 800 nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən 21,5 kilometrlik Buruc-Gülabatlı-Xoruzlu-Kəbirli-Bayandurlu-Qaradağlı avtomobil yolu yenidənqurmadan sonra istifadəyə verilib.

Yenidənqurmadan sonra "Tərtər" və "Ağcabədi-2" elektrik yarımstansiyaları da istismara daxil olub. Bu yarımstansiyalar sözügedən rayonların sosial-iqtisadi təyinatlı obyektlərinin, həmçinin bütün ətraf kənd və qəsəbələrin, meliorasiya və suvarma sistemlərinin fasiləsiz və dayanıqlı elektrik enerjisi təchizatını təmin edəcək.

Tərtərdə istifadəyə verilən Olimpiya İdman Kompleksi isə cəbhə bölgəsində yaşayan gənclərin sağlam həyat tərzi sürmələrində, onların idmanla sərbəst məşğul olmalarında mühüm rol oynayacaq.

İyun ayında Ağcabədi şəhərinin içməli su təchizatı və kanalizasiya sistemləri də istismara verilib. Cəbhəyanı ərazidə yerləşən Ağcabədi şəhərində əhalinin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılması mühüm əhəmiyyət kəsb edir.

Son günlər Prezident İlham Əliyev Sumqayıt şəhərində müasir işıqlandırma sistemlərinin quraşdırılması, Zərdab rayonunun Ucar-Zərdab-Ağcabədi (32 kilometr)-Gəlmə-Əlibəyli-Allahqulubağı avtomobil yolunun tikintisi, Ağcabədi rayonunun Sarıcalı kəndində yeni ümumtəhsil məktəbi binasının inşa edilməsi ilə bağlı və bir sıra digər sərəncamlar imzalayıb. Bu da bir daha göstərir ki, nəzərdə tutulan heç bir sosial infrastruktur layihəsi ixtisar edilməməklə yanaşı, günün, zamanın tələbi ilə yenilərinin də icrasına qərar verilir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Paşinyan hakimiyyəti ümidsiz vəziyyətdədir

## Ermənistanda siyasi çaxnaşma böyüyür

Ermənistanda Nikol Paşinyan baş nazir seçildikdən sonra gözlənilirdi ki, ölkədə normal həyat tərzi başlayacaq və rəhbərlik daxili, xarici siyasətdə beynəlxalq səviyyədə qəbul edilmiş qaydalar çərçivəsində fəaliyyət göstərəcək.

Bu gün ermənilər birmənalı şəkildə bəyan edirlər ki, baş nazir hakimiyyətdə olduğu müddətdə vəziyyət düzəlməyəcək. Getdikcə daha gərgin xarakter almağa başlayan pandemiya fonunda ictimai-siyasi vəziyyət bu ölkədə həm də xaotik bir durum formalaşdırmağa başlayıb.

Bütün qeyd olunanlar Paşinyanın reytinqini getdikcə aşağı salır. Sosial şəbəkələrdə aparılan müstəqil sorğulara görə də baş nazirə etimad azalmaqda davam edir.

Bu günlərdə "Çiçəklənən Ermənistan" partiyasının lideri Qaqik Tsarukyan rəhbərlik etdiyi partiyanın fəalları qarşısındakı çıxışında Paşinyan hökumətində dəyişikliklər keçirilməsini tələb etmişdi. Bildirmişdi ki, koronavirus pandemiyası zamanı erməni baş nazir hökumət qarşısına qoyulan vəzifələrin həll edə bilməməsini nümayiş etdirib.

Müxtəlif müxalif qrupları Qaqik Tsarukyanın tələbinə qoşulduqdan sonra Paşinyanın istefa məsələsi aktiv şəkildə ortaya atılmaqdadır. Bu günlərdə Ermənistanda ikinci müxalifət partiyası kimi dəyərləndirilən "İşıqlı Ermənistan" partiyası da ölkədə müxaliflərin səfərbər olması ilə bağlı şüarlar səsləndirməyə başlayıb. Təbii ki, çoxları bu çağırışı onların "Çiçəklənən Ermənistan" partiyası ətrafında birləşməyəcəyinə işarə ola biləcəyini istisna etmirlər.

Maraqlısı da odur ki, Tsarukyanın açıqlamalarından sonra koronavirusa yoluxan Paşinyan tez bir müddət ərzində sağalaraq tam işə qayıtdığını söyləyib. Təbii ki, işə qayıdan baş nazir keçirdiyi ilk brifinq zamanı onun istefasını tələb edənlərin də cavabını verməyi özünə borc bilib. Vurğulayıb ki, xalqın etibar etdiyi bir hökumətə qarşı təxribat lazımi qiymət alacaq, ona qarşı qalxanlar tezliklə özlərini tarixin zibilliklərində tapacaqlar. Baş nazir onun istefasını tələb edənləri dünyanı başına almış virusla müqayisə etdiyini də gizlətməyib.

"Lragir" saytı isə yazır ki, istefa verən ilk kim olacaq - baş nazir Paşinyan və ya onun təqdim etdiyi "virus"? "Armenian-Report" portalı isə Paşinyanı "korrupsioner və hakimiyyətdə təsadüfi adam" adlandırır. Məqalənin müəllifi Paşinyanı "oğru və yalançı" da adlandırmaqdan çəkinmir və istefasının vaxtının çatdığını bildirir.

Erməni politoloq Stepan Danielyan da Paşiyanı növbəti seçkiləri gözləməməyə çağırıb və səbəb kimi reytinqinin çox düşdüyünü göstərib. Erməni ekspert Armen Manvelyan isə Paşinyanın ən böyük günahını Rusiya ilə münasibətləri korlamasında görüb. Qeyd olunub ki, indi Yerevanda inqilab kabusu dolaşmaqdadır. İnqilabın ortaya çıxaracağı "qəhrəman" böyük ehtimalla keçmiş hərbi xuntanın müəyyənləşdirdiyi və sabiq prezident Robert Koçaryanın biznes ortağı, oliqarx Qaqik Sarukyan olacaq.

Bunlarla yanaşı, Ermənistanda koronavirus infeksiyası sürətlə yayılmaqda və nəzarətdən çıxmaqdadır. Erməni siyasi icmalçısı Akop Koçaryan yazır ki, Ermənistanda koronavirusun olacağına inanmayan bir adam qalmadı, çünki demək olar ki, hər kəsin qohumları və dostları arasında xəstələr var. Pandemiya Ermənistanın milli təhlükəsizliyinə təhdid oldu. İndi Paşinyan hakimiyyəti ümidsiz vəziyyətdədir. Səhiyyə sistemi artıq bütün xəstələrə xidmət edə bilmir. Xəstəxanalarda yer olmadığı üçün insanlar ölürlər.

A.Koçaryan onu da deyib ki, Ermənistan iqtisadiyyatında son hadisələr hökumətin iqtisadi siyasətinin sadəcə çökdüyünü göstərir: "Hər yerdə vəziyyət getdikcə pisləşir. Üstəlik, Ermənistan qazın qiymətlərinin artmasını gözləyir. Hakimiyyət müvəffəq olduqları görünən sahələrdə də uğursuz oldu. İnsanlar bu komandanın keçmiş hakimiyyətin oğurladıqları milyardları geri qaytaracağına ümid edirdilər. Ancaq vaxt bunun əksini göstərdi".

Görünən odur ki, hakimiyyət getdikcə dərinləşən problemlərə son qoymaq iqtidarında deyil. Elə bu səbəbdən qarşıdakı müddət ərzində Ermənistanda vəziyyətin daha da pisləşəcəyi gözlənilir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# REGİONLAR



**Son illər ölkə iqtisadiyyatının dinamik inkişafının təmin olunması işləri ilə paralel olaraq, iqtisadi fəaliyyətin və gəlirlərin tam saflaşdırılması istiqamətində də ardıcıl islahatlar həyata keçirilir. Bu islahatlar "kölgə" iqtisadiyyatı"nın miqyasının əhəmiyyətli dərəcədə kiçilməsinə və rəqabət mühitinin daha da yaxşılaşmasına mühüm əsaslar yaradır.**



# Qazaxda hər iş öz axarı ilə gedir





Azərbaycanda dövlət tərəfindən təkmil nəzarət və təşviqyönümlü mexanizmlərin geniş tətbiqi nəticəsində uğur qazanan bölgələrdən biri də Qazaxdır. Rayonda iqtisadi fəaliyyət sahələrində şəffaflığın ciddi şəkildə artmasına nail olmaq üçün bir sıra məqsədyönlü işlər həyata keçirilir ki, bunun da sayəsində dövlət-biznes münasibətləri daha sağlam əsaslar üzərində qurulmaqla bütün sahələrdə maliyyə intizamı yaxşılaşır. Nəticədə rayon iqtisadiyyatının əsasını təşkil edən kənd təsərrüfatı, sənaye, tikinti, eləcə də digər sahələrdə uğurlar əldə edilir.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşovla söhbətimiz də elə bu istiqamətdə oldu. Söhbət zamanı məlum oldu ki, artıq bir neçə ildir aparılan islahatlar nəticəsində rayon dövlət büdcəsindən heç bir vəsait almadan bütün xərcləri əldə etdiyi gəlirlər hesabına ödəyir. Həyata keçirilən iqtisadi islahatlar nəticəsində digər rayonlardan fərqli olaraq əhalinin gəlirləri nəzərəçarpacaq dərəcədə artmışdır. İcra başçısı bu il gəlirlərin daha çox olacağını qeyd edərək dedi ki, bunu deməyə birinci rübdə əldə olunan göstəriciləri də təsdiqləyir. Belə ki, bu müddət ərzində rayon üzrə ümumi məhsul istehsalının həcmi 45.400.000 manat olmuşdur. Kənd təsərrüfatı məhsulunun həcmi 11.400.000, sənaye məhsulunun həcmi isə 10.510.000 manat təşkil etmişdir ki, bu da keçən ilki göstəricilərdən xeyli çoxdur. Söz yox ki, bu göstəricilər əhalinin gəlirlərinə müsbət təsir göstərmiş, rayon üzrə nominal orta aylıq əməkhaqqı 454,3 manata yüksəlmişdir.

Öyrəndik ki, son illər ölkə başçısının diqqət və qayğısı sayəsində Qazaxda əhalinin məşğulluğu sahəsində uğurlu addımlar atılmışdır. Məsələn, "Azərxalça" ASC tərəfindən xalçatoxuma müəssisəsi, Daş Salahlı kəndində sement zavodu, "Mətanət-A" şirkətinə məxsus "Azerlime" əhəng zavodu, İkinci Şıxlı kəndində "İnvestel GROUP" MMC tərəfindən tikilən "Qazax Aqropark"ı, "Gedik-Carçı Qaynaq" MMC-nin inşa edilən "Gedik-Carçı" elektrod zavodu, "Saloğlu" fərdi mebel firması tərəfindən yeni mebel fabrikinin inşası rayonda işsizliyin aradan qaldırılması istiqamətində həyata keçirilən işlərə müsbət təsir göstərmişdir.

Məlumdur ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə əhalinin məşğulluğunun təmin edilməsi məqsədilə haqqı ödənilən ictimai işlərin təşkil olunması ölkəmizdə vətəndaşların sosial durumunun yaxşılaşması istiqamətində həyata keçirilən tədbirlərin tərkib hissəsidir. Xüsusilə də bütün dünyanı çənginə almış pandemiya dövründə bu təşəbbüsün daha da təkmilləşdirilib davam etdirilməsi bunu bir daha sübut edir ki, dövlət hər zaman öz vətəndaşını və onun rifah halının yaxşılaşdırılmasını düşünür. Haqqı ödənilən ictimai işlərin sistemli və şəffaf şəkildə təşkili məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi nəzdində "DOST İş Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması da məhz bu sahəyə ən böyük töhfə oldu. Əvvəlki illərdə olduğu kimi, bu il də "DOST İş Mərkəzi" MMC-də sosial xidmətlərin göstərilməsi, təmir, abadlaşdırma, ərazilərin ekoloji sağlamlaşdırılması, o cümlədən yaşıllaşdırma işləri, parklara, ictimai yerlərə qulluq və sair işlərin göstərilməsi üçün 732 nəfər rayon sakini ictimai işə cəlb edilmişdir.

Belə çətin günlərdə dövlətimiz qeyri-formal məşğulluq sahəsində fəaliyyət göstərən və "kölgə"də olan vətəndaşlarına sosial mövqedən çıxış edərək öz dəstəyini göstərdi. Pandemiya ilə əlaqədar tətbiq edilən xüsusi rejimli karantin dövründə qeyri-formal məşğul vətəndaşlar şəffaf olmayan gəlir mənbəyini itirdiklərindən dövlət əslində çətin seçim qarşısında qalmışdı. Lakin Prezident İlham Əliyevin humanizmi, Azərbaycan vətəndaşına diqqət və qayğısı nəticəsində hətta əvvəllər qeyri-formal sektorda çalışanların da sosial müdafiəsinin nəzərə alınması təmin edildi.

Dövlət başçısının həyata keçirdiyi bütün bu tədbirlər söz yox ki, ölkə vətəndaşlarının sosial durumunun yaxşılaşdırılmasına xidmət edir. Lakin dövlətin göstərdiyi bu qayğı insanlarda qətiyyən arxayınlıq yaratmamalıdır. Bunu yaxşı dərk edən qazaxlılar göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıq etməklə yanaşı, torpaqdan ikiəlli yapışaraq halal çörəklərini zəhmət bahasına qazanırlar. Gecəni-gündüzə qatan rayon sakinləri daha çox məhsul istehsal etməklə həm ölkənin ərzaq təminatını yaradır, həm də ailə büdcələrini artırırlar. Hazırda kənd təsərrüfatında işlərin gərgin vaxtıdır. Kənd təsərrüfatının bütün sahələrində - taxılçılıqda, heyvandarlıqda, tütünçülükdə, baramaçılıqda, eləcə də kartofçuluqda bol məhsul uğrunda gərgin iş gedir. 2016-cı ildən başlayaraq tütünçülükdə yüksək göstəricilərə nail olunmuşdur. Belə ki, 2016-cı ildə rayonda cəmi 10 hektarda tütün əkilirdisə, indi bu rəqəm 65 hektara çatmışdır. Kümçülərin də uğurları ildən-ilə artır. 4 ildir bu sahədə zəngin təcrübə toplayan rayon sakinləri cari ildə 6 ton yaş barama təhvil verməyi nəzərdə tutmuşlar. Hazırda rayonda barama təhvili uğurla davam edir.

Belə bir gərgin dövrdə taxılçıların da işi çoxdur. Hər il taxıl sahələrinin həcmini artıran sarı kəhrəba ustaları bu il də bol məhsul götürəcəklərinə əmindirlər. Rayonda taxıl biçinində heç bir problem yaşanmır, texnika sarıdan çətinlik yoxdur. Hazırda arpa biçini gedir. Məhsuldarlığın ilkin göstəriciləri onu deməyə əsas verir ki, 2020-ci ildə də taxılçılar keçən ilkindən çox məhsul götürəcəklər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Lənkəranda asfaltlama işləri aparılır

**Bir neçə gündür ki, Lənkəran və Liman şəhərləri ərazisində daxili yolların təmir-bərpa işlərinə başlanılıb. Ümumi uzunluğu 4,6 kilometr olmaqla 8 küçədə yollara 25 min kvadratmetr isti asfalt döşənilməsi nəzərdə tutulub. Görülən işlər büdcə vəsaiti hesabına həyata keçirilir.**





Əsaslı təmir olunacaq küçələrdə qabaqcadan texnikaların köməyi ilə torpaqlama işləri görülür. Yolların yataq hissəsinə çınqıl döşənərək torpaq kipləşdirilir. Əvvəllər asfalt örtüyü olmuş və sıradan çıxmış hissələrdə köhnə örtük sökülür, yararsız qat qazılaraq çıxarılır, əvəzinə yararlı material tökülərək hamarlanır. Daha sonra yeni asfalt-beton örtüyü döşənir. Yolların təmirini Lənkəran Yol Tikinti ASC həyata keçirir.

***"Azərbaycan"***

# Neftçalada heyvandarlıq məhsullarının istehsalı artır

Neftçalada aqrar sahənin digər bölmələri ilə yanaşı, heyvandarlığın inkişafına da xüsusi diqqət yetirilir.

Rayonda bu sahənin inkişafını sürətləndirmək, heyvandarlıq məhsulları istehsalını daha da artırmaq məqsədilə yeni-yeni heyvandarlıq və quşçuluq təsərrüfatları yaradılır, mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasına diqqət yetirilir. Həyata keçirilən tədbirlər nəticəsində rayonda heyvanların baş sayı, ət, süd, yun və yumurta istehsalı ilbəil artır, mal-qaranın cins tərkibi yaxşılaşır.

Rayon statistika idarəsinin rəisi Şahin Mənəfov AZƏRTAC-a bildirir ki, hazırda heyvandarlıq və fərdi təsərrüfatlarda 43 min 342 baş mal-qara və 144 min 874 baş qoyun-keçi saxlanılır. Qoyun və keçilərin sayı 2019-cu ilin eyni dövrünə nisbətən 5 baş çoxdur. Cari ilin ötən ayları ərzində rayonda 5 min 35,9 ton ət (diri çəkidə), 9 min 216 ton süd, 282,8 ton yun, 4 milyon 665 min ədəd yumurta istehsal olunmuşdur.

Ötən ilin eyni dövrü ilə müqayisədə ət istehsalı 12,8 faiz, süd istehsalı 4,7 faiz, yun istehsalı 0,04 faiz, yumurta istehsalı isə 2,9 faiz çox olmuşdur.

# Kürdəmir rayonunda kartof yığımı davam edir

Kürdəmir rayonunda kartof yığımı davam edir. Fermerlər və fiziki şəxslər indiyədək sahələrdən 5,4 tondan çox məhsul götürüblər.

Rayon statistika idarəsindən AZƏRTAC-a bildirilir ki, 2020-ci ilin məhsulu üçün 895 hektar sahədə yazlıq kartof yetişdirilib. Daha çox əkin aparılan Muradxan, Ərəbqubalı, Axtaçı, Mehdili inzibati ərazi dairələrində torpaq mülkiyyətçiləri bol məhsul götürürlər. Hələlik rayon üzrə hər hektarın məhsuldarlığı 124,9 sentnerdir ki, bu da ötən ilin göstəricisindən 0,8 sentner çoxdur.

Qeyd edək ki, yığılan məhsulun bir qismi yerli və ətraf regionların bazarlarına göndərilir.



# Sumqayıtda ekoloji problemlər həllini tapır

Sumqayıt şəhərində son illər bütün sahələrdə kompleks işlər görülür. Şəhərdə uzun illərdən qalan, sakinləri narahat edən problemlər köklü surətdə həll edilir. Şəhərin əsas problemlərindən biri "Acıdərə" kanalı da artıq öz həllini tapıb. Hazırda "Acıdərə" kanalı qapalı sistemə keçirilməklə yeni məcraya salınır.



Sumqayıt şəhərinin ərazisindən keçən "Acıdərə" kanalının qapalı sistemə salınması üçün inşa edilən beton kanalizasiya sisteminin bir hissəsi artıq tam hazırdır.

Layihənin qısa müddətdə başa çatması üçün əraziyə lazımi sayda texnika və işçi qüvvəsi cəlb edilib. Kanalın şəhərin mərkəzindən keçən hissəsində işlər yekunlaşıb.

"Acıdərə" kanalına yeraltı və kanalizasiya suyu axıdılır. Kanalın üzəri açıq olduğundan ətrafı dözülməz üfunət iyi bürüyürdü. Bu ətraf mühitin məhv olması ilə yanaşı, orada yaşayan 20 mindən çox insanın həyatı üçün təhlükə mənbəyidir. Yağış yağdıqda isə vəziyyət daha acınacaqlı hal alırdı. Kanalın çirkab suyu həyətyanı sahələrə və yaşayış evlərinin zirzəmilərinə daxil olmaqla, əlavə çətinliklər yaradırdı.

Dövlət vəsati hesabına görülən işlər başa çatdıqdan sonra 20 minə yaxın sakinin yaşadığı ərazidə kanalizasiya sistemi yaradılacaq. Bu da mövcud problemin birdəfəlik həllinə gətirib çıxaracaq.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Ağcabədidə barama tədarükünə başlanılıb

**Ağcabədi rayonunda barama tədarükünə başlanılmışdır. Kümçülərin yetişdirdikləri məhsul rayonda "Azəripək" MMC nümayəndələri tərəfindən qəbul edilir. Ağcabədi Dövlət Aqrar İnkişaf Mərkəzi baramanın təhvil alınmasına münasib şərait yaratmışdır.**





Rayon icra hakimiyyətinin başçısı Rafil Hüseynov baramanın ilk təhvilində iştirak edib, kümçülərlə görüşüb. Yeni mövsümdə qapana ilk məhsul qoyan Qaravəlli kəndindən kümçü Talıb Quliyevi təbrik edən R.Hüseynov ona hədiyyə vermişdir. Daha sonra Kəbirli kəndindən Mürvət, Ağcabədi şəhərindən Bakir Mehtiyev böyük zəhmət bahasına yetişdirdikləri məhsulu təhvil vermişlər.

Ağcabədi respublikanın baramaçılıq rayonları sırasında qabaqcıl yerlərdən birini tutur. Son illər rayonda baramaçılığın daha da inkişaf etdirilməsi istiqamətində məqsədyönlü iş aparılır.

Rayonda baramaçılıq 1990-cı illərin əvvəllərində tənəzzülə uğrasa da, 2016-cı ildə yenidən bərpa edilməyə başlanılıb. Həmin il rayonda 3675, 2017-ci ildə 16 min 761, 2018-ci ildə 37 min 146, 2019-cu ildə isə 54 min 466 kiloqram barama tədarük olunmuşdur.

Əvvəlki illərdə yetişdirilən məhsulun bəhrəsini görən ağcabədi kümçüləri cari ildə daha çox məhsul tədarük etməyi qarşıya məqsəd qoyublar. Onlara bu mövsüm 1500 qutu ipəkqurdu toxumu paylanmışdır. Cari il rayonda 60 tona yaxın barama tədarükü proqnozlaşdırılır.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan koronavirusla mübarizədə nümunə göstərir

## İlham ƏLİYEV: "Bizim əsas vəzifəmiz insanları bu xəstəlikdən qorumaqdır, onların həyatını xilas etməkdir"

Əvvəli 1-ci səh.

Bunun üçün dövlət büdcəsindən 14,8 milyon manat ayrılıb. İlk belə xəstəxana mayın 7-də paytaxtda istifadəyə verilib. Növbəti 3 xəstəxana isə paytaxtın Bilgəh qəsəbəsində, Sumqayıt şəhərində və Abşeron rayonunun Saray qəsəbəsində quraşdırılıb. Mühüm məsələlərdən biri də odur ki, 10 modul xəstəxananın 4-nü özəl sektor öz vəsaiti hesabına inşa edəcək. Bununla da dövlətin üzərinə düşən yük bir qədər azalır. Bu barədə danışan Prezident İlham Əliyev özəl sektora və vətəndaşlara təşəkkür edərək deyib: "Özəl sektorun nümayəndələrinə və eyni zamanda, adi vətəndaşlara koronavirus dövründə göstərdikləri maliyyə dəstəyinə görə təşəkkürümü bildirmək istəyirəm".

### Vətəndaşların və beynəlxalq təşkilatların təqdir etdiyi fəaliyyət

Ümumiyyətlə, Prezident İlham Əliyevin koronavirusla mübarizə təşəbbüsləri çoxşaxəlidir. Bu zaman vətəndaşlarımız və beynəlxalq təşkilatlar tərəfindən təqdir olunan əsas məsələ Prezident İlham Əliyevin problemin həllində nümayiş etdirdiyi nümunəvi mövqeyidir. İlham Əliyevin fərman və sərəncamları ilə məqsədi koronavirus infeksiyasının Azərbaycanda yayılmasının qarşısını almaqdan və həyata keçirilən tədbirlərə maliyyə dəstəyini təmin etməkdən ibarət olan Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılması və buraya Prezidentin Ehtiyat Fondundan ilkin olaraq 20 milyon manatın ayrılması, koronavirus xəstələrinə xidmət göstərən həkimlərin maaşının artırılması, koronavirusla əlaqədar yaşına və səhhətinə görə xüsusi qayğıya ehtiyac duyan yaşı 65-dən yuxarı olan 176 məhkumun əfv edilməsi virusla mübarizənin ilkin mərhələsində atılan mühüm addımlar oldu.

Eyni zamanda 575 çarpayıdan ibarət olan, ölkəmizin ən müasir və "Yeni klinika" adlanan xəstəxanasının açılışından sonra virusa yoluxan xəstələrin müalicəsi üçün onların ixtiyarına verilməsi, yeni laboratoriyaların alınması, Sumqayıtda qoruyucu tibbi maska istehsalı müəssisələrinin fəaliyyətə başlaması vətəndaşların sağlamlığı naminə həyata keçirilən dövlət siyasətinin uğurlu nümunələri oldu.

Minlərlə Azərbaycan vətəndaşının müxtəlif ölkələrdən dövlət hesabına təşkil olunmuş çarter reysləri vasitəsilə ölkəmizə təxliyə edilməsi isə İlham Əliyevin hər bir məsələdə öz xalqının yanında olduğunu, vətəndaşının taleyinə son dərəcə diqqətlə yanaşdığını növbəti dəfə təsdiq etdi.

Atılan addımlar, verilən qərarlar həm də iqtisadi dayanıqlığın qorunması və vətəndaşların sosial rifahı kimi məsələləri əhatə etdi. Yüz minlərlə vətəndaşın və mikrosahibkarlıq subyektlərinin əməkhaqlarının böyük hissəsi dövlət tərəfindən ödənildi. Aztəminatlı, işsiz və qeyri-rəsmi çalışan vətəndaşa minimal meyara uyğun olaraq ödənişlər edildi. Prezident İlham Əliyevin təşəbbüsü ilə ödənişli ictimai iş yerlərinin sayı 2 dəfə artırılaraq 90 minə çatdırılıb. Aprelin 1-dən həm də ünvanlı sosial yardımı alan ailələrin sayı 12 min artırılıb.

### Azərbaycan Prezidenti koronavirusla mübarizədə qlobal səyləri birləşdirir

Məhz həyata keçirilən uğurlu dövlət siyasəti nəticəsində Azərbaycanda koronavirus pandemiyasının ağır fəsadları, Avropa ölkələrində olduğu kimi, çoxlu sayda insan itkisi baş vermədi. Bu həm də onu göstərir ki, Azərbaycanda vəziyyət nəzarət altındadır. Qeyd edək ki, Azərbaycanda virusa yoluxanların sayı 8 minə qədər olduğu halda, əhalisi bizdən beş dəfə az olan Ermənistandan yoluxma sayı 13 mini ötüb. Prezident İlham Əliyev bildirib ki, xalqla iqtidar arasında birlik olan yerdə nəticə də yaxşı olur: **"Bizim əsas vəzifəmiz insanları bu xəstəlikdən qorumaqdır, onların həyatını xilas etməkdir. Əlbəttə ki, itkilərimiz də olub, amma bəzi ölkələrlə müqayisədə Azərbaycandakı vəziyyət qat-qat yaxşıdır. Bu, onu göstərir ki, düşünülmüş siyasət, xalqla iqtidar arasında birlik, dövlətin addımlarına yüksək inam olan yerdə nəticə də olur".**

Azərbaycan Prezidentinin təşəbbüsləri ilə koronavirusla mübarizə məsələləri yalnız ölkə daxilini əhatə etmir. Respublikamızın Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına və Qoşulmama Hərəkatına sədrliyindən irəli gələrək Prezident İlham Əliyevin təşəbbüsləri ilə bir müddət əvvəl Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və Qoşulmama Hərəkatının Zirvə görüşləri keçirilib. Bununla da Azərbaycan Prezidenti koronavirusla mübarizədə qlobal səyləri birləşdirib. İlham Əliyevin qeyd etdiyi kimi, bizim onsuz da yüksək səviyyədə olan beynəlxalq imicimizə də bu, növbəti bir töhfədir.

Azərbaycanın Ümumdünya Səhiyyə Təşkilatına fərdi qaydada iki dəfə ianə verməsi və beləliklə də, 29 ölkəyə humanitar yardım göstərməsi, fərdi qaydada isə 14 ölkəyə humanitar yardım etməsi də Azərbaycanın qlobal səviyyədə koronavirusla mübarizəyə verdiyi töhfələrdir. Bütün bunlar beynəlxalq ictimaiyyət, o cümlədən ÜST tərəfindən yüksək qiymətləndirilib.

Ən böyük qiyməti isə Azərbaycan xalqı verir. Bu günlərdə xalqımızın İlham Əliyevin ətrafında sıx birləşməsi ölkəmizdəki milli həmrəyliyin təcəssümüdür. Bu baxımdan bir çox sınaqlardan layiqincə çıxmış Azərbaycanın koronavirusla mübarizədən qalib ayrılacağı da şübhəsizdir.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Maskadan istifadə həyati əhəmiyyət daşıyır

## Dövlət başçısı bir daha bütün qapalı yerlərdə tibbi maskadan istifadənin zəruriliyi ilə bağlı çağırış etdi

Əvvəli 1-ci səh.



İnfeksionist Vasif Əliyev məlumat verir ki, hamıya maska taxmaq tövsiyə edərkən yüngül formada xəstəlik keçirən, eyni zamanda, asimptomatik, hər hansı klinik əlaməti olmayan insanlar da nəzərə alınır: "Həmin şəxslərdə xəstəlik əlaməti olmasa da, onlar aktiv virus daşıyıcılarıdırlar. Bu insanlar virusu digərlərinə yoluxdura bilərlər. Maska taxılması ilə xəstə və sağlam insanı ayırd etmədən xəstəliyin ötürücülüyünün qarşısı alınır. Bu, eyni zamanda sosial mesajdır. Hər kəs maska taxdığı zaman ortamda olan digər insanlar da bunu özünütənqid bilərək maska taxmağa məcbur olur. Maskanın qoruyuculuğu 100 faiz deyil. Ancaq yoluxma sayı xeyli azala bilər".

### Prezident: "Mən bütün qapalı yerlərdə tibbi maskadan istifadə edirəm və hər kəs də qapalı şəraitdə tibbi maskadan istifadə etməlidir"

İyunun 9-da Prezident İlham Əliyev üç modul tipli xəstəxananın açılışı zamanı çıxışında maskadan istifadənin zəruriliyini bir daha vurğuladı: "Biz, eyni zamanda, sənaye imkanlarımızdan da istifadə etdik. Qısa müddət ərzində tibbi maska müəssisələri fəaliyyətə başladı. İki müəssisə indi fəaliyyətdədir. Dezinfeksiya vasitələri artıq Azərbaycanda istehsal olunur. Eyni zamanda Azərbaycanda həkimlər üçün xüsusi geyimlər, kombinezonlar istehsal olunur. Həmçinin biz tibbi maskaları xaricdən də idxal edirik. Çünki tələbat artır və tələbatın artması bilavasitə məhdudlaşdırıcı tədbirlərlə bağlıdır. Biz müşahidə edirik ki, vətəndaşlar son günlər tibbi maskalardan daha çox istifadə edirlər. Bir daha demək istəyirəm ki, bu, qapalı şəraitdə mütləqdir. Mən bütün qapalı yerlərdə tibbi maskadan istifadə edirəm və hər kəs də qapalı şəraitdə tibbi maskadan istifadə etməlidir - ictimai nəqliyyatda, ofislərdə, alış-veriş mərkəzlərində. Açıq havada bu tövsiyə olunur, əgər yaxın təmas yoxdursa, maskadan istifadə etməmək də olar. Ancaq qapalı şəraitdə hər kəs mütləq maskadan istifadə etsin, hər kəs məsafə saxlasın və şəxsi gigiyenaya fikir versin. Çünki cəmi bu üç amil, - bunu həkimlər, müxtəlif ictimai xadimlər bəlkə də min dəfə deyiblər, - gərək nəzərə alınsın: tibbi maska, bir yarım-iki metr məsafə və dezinfeksiya vasitələri. Bu amillər insanları həkimlərin yekdil rəyinə görə, 95 faiz qoruyur. Ona görə vətəndaşlardan artıq dərəcədə xahiş edirəm ki, bu çox sadə qaydalara əməl etsinlər və bilsinlər ki, koronavirus yoxa çıxmayıb".

### Yanlış istifadə təhlükəyə yol açır

Göründüyü kimi, maskadan istifadə koronavirus infeksiyasının yayılmasının qarşısını xeyli alır, amma ondan düzgün istifadə edilməməsi gözlənilən müsbət nəticəni sıfıra endirir. İctimai yerlərdə, nəqliyyatda və. s yerlərdə aparılan müşahidələrə əsasən demək mümkündür ki, insanların bir çoxu maskadan düzgün istifadə qaydalarını bilmir. Məsələn, maska ilə yalnız ağızlarını örtürlər, burunlarını isə yox. Belədə isə onlar digərlərini virusa yoluxdurmasalar da, özləri yoluxma təhlükəsində olurlar. Hətta maskanı çənəsinin altında, boğazında, əlində aksessuar kimi saxlayanlara da rast gəlinir. Bəziləri isə maskanı şablon xatirinə, hansısa bir məkana daxil olduqda maska tələb olunarsa, çantasında olduğunu göstərmək üçün gəzdirir. Sadalanan bütün hallar çox yanlışdır və belələri həm özlərini, həm də digərlərini təhlükəyə atırlar.

### Maskadan istifadə zamanı bu şərtlərə əməl edin

Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə görə, maskalardan istifadə zamanı bir sıra şərtlərə mütləq şəkildə əməl etmək lazımdır. Belə ki, ağız və burun maska ilə tam bağlanılmalıdır. Maska taxarkən əmin olmaq lazımdır ki, üzlə maska arasında boşluq qalmayıb. Maskadan istifadə edərkən ona toxunmaq olmaz. Əgər maskaya toxunulacaqsa, onda əllər spirt məhlulu ilə təmizlənməli və ya sabun ilə yuyulmalıdır.

Maska nəm olarkən onu yenisi ilə əvəz etmək lazımdır. Tək istifadəlik maskaları yenidən istifadə etmək olmaz. Maska taxmazdan əvvəl əllər spirt məhlulu ilə təmizlənməli, yaxud sabun və ya su ilə yuyulmalıdır.

Maskalar üzdən ipləri tutaraq çıxarılmalıdır, maskanın ön hissəsinə toxunulmamalıdır. İstifadə edilmiş maska dərhal qapalı zibil qutusuna atılmalıdır. Əllər isə spirt məhlulu ilə təmizlənməli, sabun və ya su ilə yuyulmalıdır.

### Tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə etməyənlər cərimələnir

Uzun müddətdir ki, ayrı-ayrı ölkələrdə fərdi qoruyucu vasitələrdən istifadə etməməyə görə yüksək məbləğdə cərimələr, hətta həbs cəzası da tətbiq olunur.

Artıq Azərbaycanda da epidemiya əleyhinə, sanitariya-gigiyena və karantin rejimləri dövründə tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə ilə bağlı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən tələblərin pozulmasına, habelə vəzifəli şəxslər tərəfindən həmin tələblərin pozulmasının qarşısının alınmamasına görə cərimələr müəyyənləşdirilib.

Belə ki, epidemiya əleyhinə, sanitariya-gigiyena və karantin rejimləri dövründə tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə ilə bağlı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən tələblərin pozulmasına, habelə vəzifəli şəxslər tərəfindən həmin tələblərin pozulmasının qarşısının alınmamasına görə fiziki şəxslər 50, vəzifəli şəxslər 100, hüquqi şəxslər 200 manat məbləğində cərimə edilir.

Bu xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən epidemiya əleyhinə, sanitariya-gigiyena və karantin rejimləri dövrü başa çatanadək təkrar törədilməsinə görə fiziki şəxslər 100 manat, vəzifəli şəxslər 200 manat, hüquqi şəxslər 400 manat məbləğində cərimələnir.

### Bu yerlərdə maska taxmaq məcburidir

Aşağıda qeyd edilən yerlərdə tənəffüs yollarını qoruyan fərdi vasitələrdən (tibbi maska, parça maska, respirator və sair) istifadə məcburidir:

Şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili) sərnişindaşımada istifadə olunan nəqliyyat vasitələrində (avtobus, taksi, metro, dəmiryolu və s.);

*- bazarlarda;*

*- qapalı ictimai iaşə, ticarət və xidmət obyektlərində (həmin obyektlərdə göstərilən xidmət növündən asılı olaraq tənəffüs yollarını qoruyan fərdi vasitələrin çıxarılmasının zəruri olduğu hallar istisna olmaqla);*

*- dövlət orqanlarının (qurumlarının) binalarında vətəndaşların qəbulu və vətəndaşlara xidmət üçün nəzərdə tutulan sahələrdə;*

*- fiziki və hüquqi şəxslərə məxsus binaların müştərilərə xidmət göstərilməsi üçün istifadə edilən sahələrdə;*

*- açıq sahəli ofislərdə və istehsalat yerlərində;*

*- tarix və mədəniyyət abidələri hesab edilən qapalı məkanlarda;*

*- ibadət yerlərində;*

*- elm və səhiyyə müəssisələrində;*

*- sosial, mədəniyyət və digər bu kimi qapalı obyektlərdə;*

*- ictimai nəqliyyat dayanacaqlarında;*

*- bilet kassalarının, bankomatların (ATM) və ödəniş terminallarının, ticarət, iş və xidmət obyektlərinin qarşısında növbələrdə.*

Həmçinin insanların toplaşdığı və yaxın təmasda olduğu açıq havadakı ictimai yerlərdə onlar arasında sosial məsafənin qorunmasının mümkün olmadığı digər hallarda da tibbi maskadan istifadə olunmalıdır.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Ölkədə növbəti sərtləşdirilmiş karantin rejimi tətbiq ediləcək

## Vətəndaşlar həmrəylik nümayiş etdirməsələr, çox ciddi fəsadlar yarana bilər

**Azərbaycanda yeni növ koronavirusun qarşısının alınması istiqamətində dövlət tərəfindən həyata keçirilən zəruri tədbirlər davam etdirilməkdədir. Ötən gün üç modul tipli xəstəxananın açılması da COVID-19-un ölkəmizdə yayılması ilə mübarizədə olduqca mühüm əhəmiyyət kəsb edir. Modul tipli xəstəxanaların quraşdırılması ilə ölkənin səhiyyə sisteminin əlavə 2000 çarpayılıq ehtiyatı yaranır. Bu da koronaviruslu xəstələrin müalicəsi istiqamətində səhiyyənin imkanlarını daha da genişləndirəcək. Çünki xüsusi karantin rejimi yumşaldılandan və sərt qadağalar aradan qaldırılandan sonra ölkədə yeni yoluxma hallarının sayı artmaqdadır.**



Elə bu səbəbdən də mövcud sanitar-epidemioloji vəziyyət təhlil edilərək, son günlərdə virusa yoluxma sayı, xəstəliyin yayılma dinamikası nəzərə alınaraq ölkə üzrə xüsusi karantin rejiminin iyulun 1-dək uzadılmasına qərar verildi. Eyni zamanda, infeksiyanın geniş yayılmasının qarşısının alınması üzrə həyata keçirilən tədbirlər çərçivəsində dövlət sərhədində giriş-çıxışa müvəqqəti olaraq tətbiq edilən məhdudiyyətin və beynəlxalq uçuşların təxirə salınma müddəti artırıldı. COVID-19 pandemiyası ilə bağlı dünyadakı vəziyyət təhlil edilərək yükdaşımaları və çarter reysləri istisna olmaqla, Azərbaycan ərazisinə yerüstü və hava yolu ilə giriş-çıxışa tətbiq olunan məhdudiyyət 1 iyuladək uzadıldı.

### Daha iki gün evdən çıxma qadağası tətbiq ediləcək

Son günlər Yevlax, İsmayıllı, Kürdəmir və Salyan rayonlarında yüksək yoluxma faktları aşkar edildiyindən COVID-19 virusunun yayılma sürətinin azaldılması, eləcə də onun törədə biləcəyi fəsadların minimuma endirilməsi məqsədilə 14 iyun saat 00:00-dan 16 iyun saat 06:00-dək adıçəkilən dörd bölgənin, eləcə də Bakı, Gəncə, Lənkəran və Sumqayıt şəhərlərinin, Abşeron rayonunun ərazisində növbəti dəfə sərtləşdirilmiş karantin rejimi tətbiq ediləcək. İki gün ərzində bütün iş, xidmət və ticarət sahələri üzrə fəaliyyət, eyni zamanda ictimai nəqliyyatın və avtomobillərin hərəkəti dayandırılacaq, əhalinin yaşayış yerlərini və ya olduğu yerləri tərk etməsi qadağan ediləcək. Sakinlər qeyd olunan müddətdə yaşayış yerlərini və ya olduğu yerləri həyat və sağlamlığa bilavasitə təhlükəli vəziyyət yarandığı halda, eləcə də təxirəsalınmaz tibbi yardıma ehtiyac olduqda yalnız təcili tibbi yardım xidməti vasitəsilə, habelə yaxın qohumların dəfnində iştirak etmək üçün Daxili İşlər Nazirliyinin Növbətçi Hissələri İdarəetmə Xidmətinin 102 Xidməti - Zəng Mərkəzi vasitəsilə icazə almaqla tərk edə biləcək.

Müəyyən olunmuş tarixlər üzrə fəaliyyətinə icazə verilən iş və xidmət sahələrində işləyən şəxslər, onların xidməti və şəxsi avtomobillərinin hərəkətinə işəgötürən tərəfindən məlumatlar elektron imzadan istifadə edilməklə "icaze.e-gov.az" portalına daxil edildikdən sonra yol veriləcək. Fəaliyyətinə icazə verilən qurumların, eyni zamanda dövlət əhəmiyyətli, həyat təminatlı müəssisələrin və qurumların, həmçinin fasiləsiz işləyən qurumların fəaliyyətləri zəruri hesab edilən işçilərini məhdud sayda cəlb etməklə tənzimlənəcək.

Xüsusi karantin rejiminin tələblərinin pozulmasına görə fiziki, hüquqi və vəzifəli şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada inzibati və cinayət məsuliyyəti daşıyır.

### Ehtiyatda 11,6 milyon maska var

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində çıxışı zamanı qadağa günlərində çox az halda narazılıq müşahidə olunduğunu bildirib: "Ciddi neqativ hallar olmadı. Müəyyən yerlərdə çörək satışı növbələrində problem yaşandı. Sonradan tullantı qablarında atılan çörəkləri gördük. Güman edirik ki, ilk qərar olduğundan təşviş yaşandı. Təcrübənin olduğunu düşünür və inanırıq ki, növbəti dəfə belə olmayacaq".

TƏBİB sədri qeyd edib ki, yeni açılan üç modul tipli xəstəxana ilə çarpayı ehtiyatımız 600 yataq yeri genişlənib. İndiki dövrdə həftədə 200-500 xəstəni qəbul etmək mümkündür. Xəstə sayı çoxaldıqca tibbi personalın sayı da artırılır: "İki xəstəyə ən yaxşı halda bir tibb işçisi qulluq edir. Bu gün üçün tibb müəssisələrində hər hansı çatışmazlıq yoxdur. Depomuzda bütün lazımlı vasitələr kifayət qədərdir. Dünyada istifadə olunan bütün dərman preparatları ölkəmizdə mövcuddur. Olmayan dərman yoxdur və hər hansı qıtlıq yaşanmır. Gələcəkdə bununla bağlı problem olmayacaq".

Nazirlər Kabinetinin Mətbuat Xidmətinin rəhbəri İbrahim Məmmədov isə Operativ Qərargahın brifinqində Azərbaycanda tibbi maskaların satışının artdığını qeyd edib. Onun sözlərinə görə, ehtiyatda 11,6 milyon maska var. Ölkədə bir gündə 200 minədək maska istehsal olunur. İyunun 4-də 524 min, iyunun 5-də 950 min, iyunun 8-də 575 min tibbi maska satılıb.

### Yoluxma daha çox ictimai nəqliyyatda və iaşə obyektlərində qeydə alınır

Ölkədə koronavirusa yoluxma hallarının böyük hissəsi paytaxtın payına düşür - bu göstərici 50 faizin üzərindədir. Bu da yoluxma saylarının artması ilə əlaqədardır. Sabunçu rayonunda bu göstərici 12.4, Yasamalda 12.3, Xətaidə 11.6, Nəsimi rayonunda 11 faiz təşkil edib. İyunun 1-dən 7-dək Azərbaycanda 2059 nəfər koronavirusa yoluxub. "Xəstəlikdən sağalanlarla virusa yoluxanların sayı arasındakı fərq narahatedicidir. Son 10 günün nəticəsinə görə, həmin fərq arzuolunan səviyyədə deyil", - deyə R.Bayramlı qeyd edib.

Dövlət strukturlarında çalışanlar arasında da koronavirusa yoluxma halları var.

Azərbaycanda koronavirusa yoluxanların yaş qruplarına gəlincə, bu göstərici 50-59 yaş arası 21, 30-39 yaş arası 18, 40-49 yaş arası 15 faiz təşkil edir. TƏBİB sədrinin sözlərinə görə, müşahidələr artan dinamikada gənclərin payının çox olduğunu göstərir: "Gənc yaşda olan insanların virusa yoluxması artıb və onlar xəstəliyi ağır keçirirlər. Əvvəl ağır xəstələr əsasən yanaşı gedən xəstəliyi olanlar idisə, bu gün gənc yaşda olanlar da xəstəliyi ağır keçirir. Bu da evdə özünü müalicəyə cəhd edənlər arasında müşahidə olunur. Qadınlar arasında yoluxma 54 faiz, kişilərdə isə 46 faizdir".

O da qeyd olunub ki, yoluxma faktları daha çox ictimai nəqliyyatda və ictimai iaşə obyektlərində qeydə alınır. Çünki həmin yerlərdə sosial məsafə qorunmur. Marketlərdə də yoluxma sayı artır: "Siyəzən rayonunda 12 yoluxma halı aşkar edildi ki, onların da hamısı qadınlardır. Onların hamısı yas yerində yoluxublar".

R.Bayramlı qeyd edib ki, tibb müəssisələri virusu vaxtında aşkarlamağa, vətəndaşlar isə mövcud qaydalara əməl etməyə borcludur: "Əgər vətəndaşlar həmrəylik nümayiş etdirməsələr, çox ciddi fəsadlar yarana bilər".

Məhz bu səbəbdən ictimai yerlərdə, qapalı məkanlarda şəxsi gigiyena, eləcə də tibbi-profilaktik qaydalara əməl etmək, sosial məsafə gözləmək, kənar şəxslərlə minimum kontaktda olmaq, sanitar-epidemioloji vəziyyətə uyğun olaraq müəyyən edilmiş yerlərdə qoruyucu vasitələrdən istifadə mütləqdir. Dövlətin vəzifəsi insanları bu xəstəlikdən qorumaq, onların həyatını xilas etməkdir. Vətəndaşların vəsifəsi isə dövlətin qoyduğu qanunlara riayət etməkdir. Gəlin COVID-19 virusu ilə mübarizədə, insanların sağlamlığı və təhlükəsizliyinin qorunması istiqamətində dövlət tərəfindən həyata keçirilən tədbirlərdə həmrəylik göstərək. Özümüzün, yaxınlarımızın səhhəti, sağlamlığı naminə Nazirlər Kabineti yanında Operativ Qərargahın tələb və qaydalarına əməl edək. Maska taxaq, sosial məsafəni gözləyək, gərək olmadığı təqdirdə evdən çıxmayaq. Hazırkı dövrdə pandemiya ilə səmərəli mübarizə bilavasitə vətəndaşların intizamlı davranışı və məsuliyyətindən asılıdır. Ona görə də bir olaq, birlikdə olaq ki, gözəgörünməz virusa qalib gələk. Çünki biz birlikdə güclüyük.

***Xəyalə MURADLI, "Azərbaycan"***

Rəsul Rza - 110

# Şairin həqiqəti - insanlığın həqiqəti bizim nailiyyətimizdir

**Rəsul Rza Azərbaycan xalqının XX yüz ildə yetişdirdiyi böyük və bənzərsiz ədəbi simalarından biridir. Mirzə Ələkbər Sabir və Mirzə Cəlil, Məhəmməd Hadi və Əli bəy Hüseynzadə, Hüseyn Cavid və Cəfər Cabbarlı, Üzeyir Hacıbəyli və Yusif Vəzir Çəmənzəminli, Mikayıl Müşfiq və Səməd Vurğun kimi bəşər mədəniyyətinin üzvi bir hissəsinə çevrilən sənətkarlarla bir sırada Rəsul Rza da Azərbaycanın adını və mənəvi qüdrətini dünya xalqları arasında ləyaqətlə təmsil etməkdədir.**



Akademik İsa Həbibbəyli böyük sənətkarın Azərbaycanın bədii təfəkkür tarixində təkrarsız xidmətlərini ümumiləşdirərək yazır: "Rəsul Rza əsrlərdən qırıq-qırıq sızıb gələn ənənələri böyük sürətlə inkişaf etdirərək, sərbəst şeiri XX əsr Azərbaycan poeziyasında qanuniləşdirmək missiyasını böyük şərəflə həyata keçirmişdir. Məhz Rəsul Rzanın böyük yaradıcı dühasının simasında sərbəst şeir Azərbaycan ədəbiyyatının həmişəlik ədəbi sərvətinə çevrilmişdir. Rəsul Rzanın sərbəst şeirləri Azərbaycan ədəbiyyatına geniş fikir və düşüncə sərbəstliyi gətirmiş, lirikanın poetik formanın bəzi formal tələblərindən xilas olmasına imkan yaratmışdır. Sərbəst adlanmasına baxmayaraq, Rəsul Rzanın poeziyasında şeir texnologiyası üçün zəruri olan şərtlərə yaradıcı şəkildə əməl olunmuşdur. Bu mənada Rəsul Rzanın sərbəst şeirləri özünəməxsus yüksək sənətkarlıq xüsusiyyətlərinə malik olan qiymətli poetik nümunələrdir. Rəsul Rzanın sərbəst şeirləri ilə Azərbaycan sərbəst şeiri özünün inkişafının ən yüksək səviyyəsinə çatmışdır. Azərbaycan xalqının tarixi taleyi və XX əsr boyu çətin həyatın real fəlsəfəsi Rəsul Rzanın poeziyasının nəbzində döyünür". Dünya bədii-estetik fikrinin nəhəng nümayəndələrinin Rəsul Rza haqqında fikir və qənaətləri də görkəmli ədəbiyyatşünas alimin mülahizələrinin elmi-nəzəri əhəmiyyətini vurğulamaqdadır.

Rəsul Rza poeziyasının böyüklüyünü və ümuminsani mahiyyətini təkcə onu yazıldığı dildə oxuyub anlayanlar deyil, bu təkrarsız şeiriyyəti tərcümədə oxuyanlar da bilirdilər. Qardaş türk dillərində yazıb-yaradan Nazim Hikmət, Muxtar Auezov, Qafur Qulam, Aybek, Maqsud Şeyxzadə, Mirtemir və Əsəd Muxtar, Çingiz Aytmatov, Oljas Süleymanov, Muxtar Şaxanov və başqaları da Rəsul Rza əsərlərinin dünya şöhrətini dərindən anlayırdılar. Məşhur şairimizin irsini Kanadadan Yaponiyaya qədər, Latın Amerikası ölkələrindən Hindistana, Norveç və İsveçdən Çinə qədər bütün mədəni ölkələrdə oxuyur və həvəslə öz doğma dillərinə çevirirdilər.

Rəsul Rzanın yaradıcılığı haqqında başqa ölkələrdən olan qələm dostlarının və pərəstişkarlarının müxtəlif dövrlərdə bildirdiyi mülahizələr yuxarıda söylədiklərimizi parlaq şəkildə təsdiqləyir. Görkəmli rus şairi İlya Selvinski aşağıdakı misraları misal gətirib:

*Aydındır şeirin dili,*
*İstəyirsən sevincdən,*
*istəyirsən qəmdən yaz.*
*Elə aydındır bu dil,*
*nadan yüz il oxusa,*
*yenə bir şey anlamaz. -*

səmimi və qəti münasibətini bildimişdi: "Nə qədər iti və incə deyilmişdir. Bu şeirdə Şərqin təmkinli müdrikliyi canına hopmuş Azərbaycan şairinin siması nə qədər aydın hiss olunur. Belə şeirin altından Nizami və Sədi imza qoya bilərdilər. Yəni hər hansı bir ölkənin hər hansı müasir şairi də öz lirikasında belə incinin olması şərəfindən imtina etməzdi". Böyük şairin zamandaşları bu poeziyanın əzəmətini və miqyasını düzgün səciyyələndirirdilər. Rəsul Rzanın Azərbaycan və ümumtürk şeiriyyətində mövqeyini Pablo Nerudanın ispandilli poeziyadakı, Vladimir Mayakovskinin rus, Pablo Tıçinanın Ukrayna, Nazim Hikmətin Türkiyə poeziyasında yeri və rolu ilə müqayisə edirdilər.

Qırğız yazıçısı, XX yüz ilin görkəmli ədiblərindən biri Çingiz Aytmatov Rəsul Rza lirikasının pərəstişkarlarından olmuşdur. Onun səmimi ürək sözləri qeyri-ixtiyari qəlbimizi riqqətə gətirir: "Əziz Rəsul müəllim! Zəmanəmizdə ən çox hörmət bəslədiyim şairlərdən biri də sizsiniz. İlhamlı təfəkkürünüz üçün, obrazlarınız üçün Sizə təşəkkür edirəm..." Son dərəcə qürurlu və fərəhlidir ki, qardaş və qandaş qırğız yazarı Rəsul Rzanın ilhamlı təfəkküründən, nəfis lirik obrazlarından necə məftunluq duyursa, ötən əsrin oxşarsız sənətkarlarından Eduardas Mejelaytis də eyni heyranlıqla şairin bədii surətlərinin əlvanlığından, poetik xəyallarının füsunkarlığından söz açır: "...Siz gözəl şairsiniz, öz doğma, günəşli və şairanə diyarınız Azərbaycanın, bütün çoxmillətli Sovet İttifaqının nəğməkarısınız. Gözəl kosmik fenomenimizin - Yer kürəmizin əlvan boyalarının bütöv bir şairanə rənglər palitrasının nəğməkarısınız. Bu gözəl Yer kürəsi sizin köksünüzdədir, gözəl şeirlərinizdə, poetik xəyallarınızdadır. Möhtəşəm vüsətinizə, poetik istedadınıza, insanlığınıza görə, insana bəxş etdiyiniz hər şeyə görə çox sağ olun!"

Bəzən bizi yerli-yersiz özümüzə məftunluqda günahlandırırlar. Öz mədəniyyətimizi göylərə qaldırmaqda, obyektiv olmamaqda təqsirləndirirlər. Elə bu səbəbdən də xarici ölkələrin yazıçılarının mühakimə və mülahizlərinə müraciət etməyi vacib bildik. Biz yeri gələndə Şekspir kimi tragikimiz, Mikelancelo və Rafael dərəcəsində rəssamımız, Motsart təki bəstəkarımız, A.Eynşteyn qüdrətində alimimiz olmadığını etiraf edirik. Amma Dədə Qorqud, Nizami, Nəsimi, Füzuli, Tusi miqyaslı dahilərin də başqalarında olmadığını vurğulayanda, bu təbii duyulmalıdır. Dünya şöhrətli sənətkarların Rəsul Rza haqqında söylədikləri ana Vətənimiz və onun mənəvi qüdrəti haqqında, Azərbaycan mədəniyyəti və söz sənəti fenomeni barəsində dərin düşüncələrə vadar edir. Azərbaycanın iki min illik zəngin ədəbiyyat və mədəniyyət tarixini təhlil edərkən, bütün zamanların ən böyük azərbaycanlısı, dahi Öndərimiz Heydər Əliyevin söylədiyi kimi, bu millətə mənsubluğuna görə özünü xoşbəxt sayırsan, azərbaycanlı olduğuna görə fəxr edirsən!..

